Xalqın qəzeti!

# Xalq qəzeti

№ 23 (30717) 2 fevral 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Zirvələr fəth edir Azərbaycan gəncləri



**Gənclik hər bir millətin döyünən ürəyidir. Zaman dəyişdikcə, nəsillər də dəyişir və fərəhlidir ki, Azərbaycan gəncləri milli-mənəvi dəyərləri yaşadır, estafeti layiqincə sabahlara doğru aparır, tərəqqiyə töhfələr verirlər. Yəni vətənpərvər ruhlu gənclik xoşbəxt gələcəyin müjdəçisi olur.**

Dünya şöhrətli siyasətçi olan Ümummilli liderimiz Heydər Əliyev həmişə gənclərə inanıb və onlara böyük ümidlər bəsləyib, zəhmətkeş və yüksək intellektual səviyyəli gənc nəslin yetişdirilməsini ümdə vəzifə sayıb. Məhz Ulu öndərin təşəbbüsü ilə dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətinin koordinasiyası məqsədi ilə 31 il əvvəl – 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Unudulmaz dahi şəxsiyyət 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarını keçirib, öz çıxışları ilə qarşıda duran vəzifələrin "Yol xəritəsi"ni verib. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" – İlk forumda Ulu öndər gənclərin qarşısında bu tarixi vəzifəni qoyub. Bir il sonra həmin tədbirin keçirildiyi gün – fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.

(ardı 3-cü səhifədə)

# Müstəqilliyimiz qədim Azərbaycanı gəncləşən, yeniləşən ölkəyə çevirib

## Heydər Əliyevin gənclər siyasəti və sevgisi

**Ulu öndər Heydər Əliyev üçün gənclik amili milli şüurun və yaddaşın keşiyində ayıq-sayıq dayanmaq amalı qədər əhəmiyyətli idi. Gəncliyin milli tarixdə və taledə tutduğu yerə, çəkiyə elm-dövlət nisbətində, yaddaş-məfkurəçilik istiqamətində heç kəs Heydər Əliyev qədər aydın mövqe təsnifi, rol bölgüsü və modeli təqdim etməyib. Gənclər siyasəti və sevgisi konsepsiya olaraq bu tamlıqda və bütövlükdə öz ifadəsini məhz Heydər Əliyevin əməlində və işində tapır. Əslində, bu gün müasir Azərbaycanda müstəqilliyin də, sabit dövlətçiliyin də, yaddaşda və əxlaqda suverenliyin də təməl məqamı bu konsepsiyadır.**



Heydər Əliyevin elm, sənət, ədəbiyyat adamlarına verdiyi dərin qiymət yaxın tariximizin tərcümeyi-halının ən qürurlu səhifələrindən biridir. Bu, həm də azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə uğurlu xidmətdir. Ulu öndər deyirdi ki, xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. İndiki nəsil tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə neçə töhfələr verdiyini dərk etməli, milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəltməlidir. Çünki bu, müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir.

Yaradıcı gəncliyin istedadlı nümayəndələrinə Prezident mükafatlarının verilməsi də Ulu öndər tərəfindən əsası qoyulmuş zəhmətin və təşəbbüslərin stimullaşdırılması siyasətinin konkret davamından ibarətdir.

Heydər Əliyevin siyasətinin əsası gənclərlə bağlı böyük amallara söykənirdi. Bu amallar o qədər prioritet idi ki, Ulu öndərin istər ən sevincli, istərsə də ən kədərli anında unudulmur, onun fikir və mülahizələrinin ana xəttinə çevrilirdi. Dahi şəxsiyyət qürur ünvanı olan klassiklərimizin, görkəmli ziyalılarımızın həyatının hər zaman gəncliyə örnək olmasını tövsiyə edirdi.

Ümummilli liderin gənclər siyasəti Azərbaycan dilinə münasibətdə daha bariz önə çıxır. Onun xüsusilə, ana dili haqqında fikirləri birbaşa gəncliyin doğru istiqamətdə, milli zəmində yetişməsi üçün uğurlu bir "yol xəritəsi" idi: "Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilinizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".

(ardı 8-ci səhifədə)

## Yanaşma "ağrısı"



Səhifə ⇨ 10

## Qəzzanın qəzalı aqibəti



Səhifə ⇨ 11

## Türk dünyası bizim ümumi ailəmizdir

*Ankara Bəyannaməsi bu dostluğun möhkəmlənməsinə zəmin yaradacaq*



**Əslində, cənab Prezident bu arqumenti dəfələrlə dilə gətirmişdir. Çünki son zamanlar beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslər, bitib-tükənməyən müharibə, münaqişə və anlaşılmazlıqlar, getdikcə daha da mürəkkəbləşən məsələlər dövlət başçılarının qarşısında çox mühüm vəzifələr qoyur. Bir tərəfdən dünyanın köhnə nizamı dəyişdirilir, digər tərəfdən isə yeni nizama keçid fəsadlarsız ötüşmür. Ona görə də liderlər xalq və milli dövlətçilik naminə daha uzaq perspektivlər barədə düşünür, daha münasib planlar üzərində çalışırlar. Biz məmnunuq ki, Azərbaycan Prezidenti həmin planları məhz qardaş xalqların ailəsinin liderləri ilə birlikdə qurur və yeni-yeni uğurlara imza atır.**

(ardı 3-cü səhifədə)

## AYİB-in Azərbaycan üçün yeni dəstək strategiyası




Səhifə ⇨ 7

## Yenidən silahlanma yarışı



Səhifə ⇨ 11

## Ermənistan iqtidarı "əkdiyini biçmək"dədir

**Ermənistan dövlətinin işğalçılıq siyasəti üzündən baş vermiş Birinci və İkinci Qarabağ müharibəsi, eləcə də antiterror tədbirləri zamanı itkin düşmüş erməni hərbçilərlə bağlı məsələ hazırda rəsmi İrəvan üçün əsas başağrılarından birinə çevrilib. İtkin düşmüş şəxslərin yaxınlarının ötən illər ərzində doğmalarının tapılması ümidi ilə Ermənistan hökumətində, necə deyərlər, döymədikləri qapı qalmayıb. Hökumət üzvləri isə onları hər dəfə yola verir, başlarından edir və müxtəlif bəhanələr uydurararaq canlarını onlardan qurtarırdılar. Ancaq son vaxtlar baş verən proseslər yüksək vəzifəli məmurların "yolavermə variantlarının" artıq işə yaramadığını göstərir. İtkin şəxslərin yaxınları daha geri çəkilmir, verilən vədlərin boş söz yığını olduğunu aydın dərk edirlər. Onlar hökumətin müvafiq orqanlarından doğru-dürüst cavab istəyirlər. Bu baxımdan son günlərdə İrəvanda baş verən hadisələr diqqəti cəlb edir.**



(ardı 4-cü səhifədə)

# Hikmət Hacıyevin İran rəsmisi ilə görüşü



**İran İslam Respublikasına səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev İran İR Prezidentinin müşaviri Mehdi Sənayi ilə görüşüb.**

Bu barədə Azərbaycanın İrandakı səfirliyi "X" səhifəsindəki paylaşımında qeyd edib.

Görüşdə ikitərəfli əlaqələr və regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıb.

*

Həmin gün Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Azərbaycanın İrandakı səfirliyini ziyarət edib.

Bu barədə də Azərbaycanın İrandakı səfirliyi "X" səhifəsindəki paylaşımında qeyd edib.

Prezidentin köməkçisi Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyub və səfirliyin yeni inzibati binası ilə tanış olub.

***XQ***



# Mərkəzi Seçki Komissiyasının iclası

**Məzahir Pənahovun sədrliyi ilə fevralın 1-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə Komissiyanın yanvarın 21-də və 30-da keçirilən iclasının protokolları təsdiq edilib. Sonra 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Media mənsubları tərəfindən geniş işıqlandırılan iclasda öncə müraciətlər barədə məlumat verilib. Ardınca Komissiya üzvlərinin müzakirəsinin nəticəsi olaraq, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə də baxılıb.

***X Q***

# Gənclər Gününə “yaşıl” töhfələr




**“Azərbaycanda ötən il 8 milyondan çox ağac əkilib”. Bu sözləri Şimal bölgəsində ağacəkmə aksiyasında ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib.**

Nazir vurğulayıb ki, 2024-cü ildə təkcə Qubada “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində icra orqanları tərəfindən 20 mindən çox ağac əkilib.

“Bugünkü agacəkmə aksiyaları 2 Fevral – Gənclər Gününə həsr olunub. Sevindirici haldır ki, ictimaiyyət nümayəndələri də ağacəkmə prosesində fəal iştirak edir. Aksiyalar çərçivəsində əkilən ağacların inkişaf etməsinə də xüsusi diqqət yetirilir”, – M.Babayev deyib.

Qeyd edək ki, meşəbərpa tədbirləri çərçivəsində Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının meşə fondu torpaqlarının açıq və seyrək ərazilərində 8 mindən artıq ağac əkilib.

***XQ***

# Qərbi Azərbaycan İcması Türkiyədə də fəaliyyət göstərəcək

**Türkiyənin Ermənistanla həmsərhəd olan Qars şəhərində Qərbi Azərbaycan İcması nümayəndəliyinin açılması Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsinə töhfə verərdi.**



Bu barədə mediaya Azərbaycanın Türkiyənin Qars vilayətindəki baş konsulu Zamin Əliyev bildirib.

Diplomat Qərbi Azərbaycandakı tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların bir qisminin övladlarının Türkiyədə yaşadığını diqqətə çatdırıb:

“Qərbi Azərbaycandan deportasiya edilən bəzi soydaşlarımız bir vaxtlar Anadoluya gəliblər. Onların əhəmiyyətli bir hissəsi Qarsda məskunlaşıb. Bu gün həmin insanlar Türkiyə vətəndaşları kimi qardaş ölkənin inkişafına mühüm töhfələr verirlər”.

Zamin Əliyev Qərbi Azərbaycandan olan insanların öz tarixi vətənlərini heç vaxt unutmadıqlarını vurğulayıb: “Bu gün Qərbi Azərbaycandan olan insanlar İcmanın fəaliyyətini diqqətlə izləyirlər. İzmirdə ofis açmaq ən yüksək qiymətə layiq bir addımdır. Eyni zamanda, inanırıq ki, Qərbi Azərbaycan İcmasının Qarsda təmsil olunması həm də onun maraqlarına və Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsinə töhfə verəcək”.

***XQ***

# Türk jurnalistin Heydər Əliyev sevgisi



**Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında türkiyəli alim, Türkiyə Radio-Televiziya Qurumunun müxbiri Aysel Sadak İltaşın Ulu Öndər, Türk xalqlarının lider şəxsiyyəti Heydər Əliyevə həsr olunmuş “İnsan ürəyi ilə Heydər baba” kitabının təqdimat mərasimi keçirilib.**

Universitetin rektoru Elbrus İsayev yeni nəşrin Ümummilli Liderin titanik həyat və fəaliyyətini dərin insani keyfiyyətləri ilə birlikdə təqdim edən dəyərli əsər olduğunu deyib. Qeyd edilib ki, əsərdə Türk dünyasınn iftixarı olan Heydər Əliyevin dövlətçilik prinsipləri, müdrik siyasəti və xalqına olan sonsuz sevgisi, dünya siyasət tarixindəki önəmli yeri müxtəlif yönlərdən tədqiq olunub.

Bildirilib ki, kitabda tanınmış alimlərin, ictimai-siyasi xadimlərin və görkəmli ziyalıların Heydər Əliyev haqqında düşüncələri, onunla bağlı xatirələri də toplanıb. Yeni nəşrin universitetin kitabxana fonduna daxil olması müəllim və tələbələr üçün dəyərli elmi mənbə, Ümummilli Liderin zəngin irsi ilə bağlı tədqiqat aparan gənclər üçün mötəbər qaynaq rolunu oynayacaq.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev kitabın dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin nəhəng şəxsiyyətini, yüksək insani keyfiyyətlərini və xalqımıza misilsiz xidmətlərini əhatəli işıqlandırdığını bildirib. Akademik qeyd edib ki, bu nəşr Heydər Əliyev siyasi fenomenini dərindən öyrənmək və onunla bağlı tədqiqatlar aparmaq istəyənlər üçün qiymətli mənbədir. Kitabda dahi liderin həyatına və irsinə dair dəyərli fikirlər, xatirələr və təhlillər də toplanıb.

Beynəlxalq münasibətlər kafedrasının dosenti Emin Şıxəliyev, hərbçi veteran Urfulla Qurbanov, “Sirab” ASC İdarə Heyətinin sədri Namiq Novruzov, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya “İnsan ürəyi ilə Heydər baba” kitabının müəllifinin ulu öndər Heydər Əliyevin irsini dərindən araşdıraraq dəyərli bir əsər ərsəyə gətirdiyini vurğulayıblar.




Türk jurnalist Aysel Sadak İltaşın kitabın Türk dünyasının unudulmaz lideri Heydər Əliyevə olan dərin sevgi və ehtiramının ifadəsi olaraq ərsəyə gəldiyini söyləyib, verilən dəyərə görə minnətdarlığını bildirib. Müəllif universitetin Elmi Kitabxanasına və iştirakçılara yeni kitabın nüsxələrini hədiyyə edib.

***Səbuhi HƏSƏNOV***

# Azərbaycan – Pakistan enerji əməkdaşlığı



**SOCAR-ın prezidenti Rövşən Nəcəf Pakistan İslam Respublikasının özəlləşdirmə, nəqliyyat və investisiya naziri Aleem Khan ilə görüşüb.**

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb.

Söhbət zamanı SOCAR ilə Pakistanın neft-qaz sahəsində fəaliyyət göstərən şirkətləri arasında hazırda müzakirə edilən layihələrin statusu, əldə edilmiş irəliləyişlər, hədəflərlə bağlı fikir mübadiləsi aparılıb, yeni əməkdaşlıq imkanları nəzərdən keçirilib.

***XQ***

# Ədliyyə naziri Astarada qəbul keçirib



**Ədliyyə naziri Fərid Əhmədov yanvarın 31-də Astara şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**

Qəbulda Astara, Lənkəran, Masallı, Lerik və Yardımlı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb, digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

***XQ***

## 2 Fevral Gənclər Günüdür



# Zirvələr fəth edir Azərbaycan gəncləri

## *Dövlətin hərtərəfli dəstəyi yeni nəsli uğurlara təşviq edir*

**(əvvəli 1-ci səhifədə)**

Gənclər üçün fəaliyyət üfüqlərini genişləndirən Dövlət proqramları, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanundur. XXI əsri Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrü kimi xarakterizə edən Ulu öndərin gəncliyə olan etimadı indi artıq öz təsdiqini hərtərəfli şəkildə tapır.

Bu əsrin əvvəllərindən ölkəmizdə gənclər siyasəti yeni məzmunda gerçəkləşdirilir. Prezident İlham Əliyev bu yöndə verdiyi bütün qərarları ilə Ümummilli liderin gənclər siyasətinə sadiqliyini sübuta yetirir. Dövlətimizin başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların cari qayğılarının həllini təmin etmək məqsədi ilə 2005–2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq edib. Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı sərəncamı gənclərin fəallığının daha da yüksəlməsinə səbəb olub. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb. Bu sahədə ardıcıl və davamlı layihələr həyata keçirilib.

Dünyada elm və texnologiyanın sürətli inkişafı, süni intellekt yaradıcılığı Azərbaycan dövlətinin də gənclərlə bağlı uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan Prezident İlham Əliyev gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə hələ 10 il əvvəl – 2015-ci il yanvarın 26-da "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi də uğurla reallaşıb.

Azərbaycan gəncliyinin vətənpərvərliyi dünyaya nümunədir. 2020-ci ildə şəhidlərimizin, qazilərimizin qanı ilə yazılmış Zəfər salnaməsinin sətirləri əsrlər boyu solmayacaq. "Ataların yolu oğulların yoludur" məramına sadiq qalan gənclərimiz şöhrət vüsətini II Qarabağ müharibəsində əzmlə davam etdiriblər. O zaman ölkədə qismən səfərbərlik elan edilsə də, minlərlə gənc orduya yazılmaq istəyir, cəbhəyə yollanmaqda təkid edirdi. Döyüş bölgələrində, səngərlərdə hərbçilərimizin qələbə əzmi, vətənpərvərlik amalı savaşın taleyini cəmi 44 günə həll etdi. Prezident, Ali Baş Komandan İlham Əliyev Bakının Azadlıq Meydanında keçirilən Zəfər Paradında bu barədə fikirlərini tükənməz iftixar hissi ilə dilə gətirdi: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi".

Müharibədən sonrakı antiterror tədbirlərində, suverenliyimizin tam bərpası üzrə əməliyyatlarda da ordumuz, onun özəyi olan gənc hərbçilərimiz mərdlik və fədakarlıq simvolu olublar. Onların əməli səyləri, qorxmazlığı və qətiyyəti sayəsində hərbi nailiyyətlərimiz təmin edilib.

Gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, yaradıcı potensiallarından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2011-ci ildə Azərbaycanda Gənclər Fondu yaradılıb. 2018-ci ildə Fond struktur islahatları ilə yenidən təşkil edilib. İndi sözügedən qurum elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş fəaliyyətlərin daha çevik stimullaşdırılmasını, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramların qrant şəklində maliyyələşdirilməsini lazımınca təmin edir. Bu kimi addımlar ölkəmizdə gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin sübutudur. Dövlətimizin başçısı gənc kadrların irəli çəkilməsi ilə də bağlı ardıcıl olaraq əməli addımlar atır. İndi neçə-neçə layiqli gənc nazir, icra hakimiyyəti başçısı və digər məsuliyyətli vəzifələrdə etimadı doğruldur.

"Gənclər üçün Prezident Mükafatının təsis edilməsi haqqında" 2013-cü il tarixli Fərmanla ilbəil ölkəmizdə bu ali dəyərləndirmənin həyata keçirilməsi gözəl ənənə halını alıb. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslər həmin mükafata layiq görülürlər.









İdman dövlətimizin gənclər siyasətində aparıcı yer tutur. Ölkə rəhbərinin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən biri kimi tanınır. 2017-ci ildə Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə bu komitənin prezidenti olan cənab İlham Əliyev Azərbaycanda idmana verilən önəmi belə dəyərləndirib: "Bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır".

Azərbaycanın müxtəlif bölgələrində olimpiya-idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında və digər mötəbər turnirlərdə uğurlu çıxışları buna əyani sübutdur. Məhz idmanın yaratdığı sağlam bədən – sağlam ruh vəhdəti sayəsində gənclərimiz bu günün qəhrəmanları səviyyəsinə yüksəliblər.

Ötən yay Parisdə keçirilmiş XXXIII Olimpiya Oyunlarını xatırlayaq. Orada Azərbaycan Milli Olimpiya Komandası 48 idmançı ilə (əvvəlkindən 4 nəfər artıq) 15 idman növü üzrə təmsil olundu. İdmançılarımızın 19-nun qadın olması da (əvvəlkində 16 qadın vardı) Azərbaycanın Olimpiya Oyunları tarixində ciddi uğur idi. Təmsilçilərimizin 29 nəfəri olimpiadada debütant olsa da, qazanılan uğur möhtəşəm idi. Belə ki, komandamız Paris Olimpiadasını 7 medalla (2 qızıl, 2 gümüş və 3 bürünc) başa vurdu. Komandanın heyətində cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev final görüşündə qələbə qazanaraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq, Dövlət Himnimizin səsləndirilməsinə nail oldular. Azərbaycan olimpiyaçıları qazanılan medalların əyarına görə 30-cu pillədə, medalların sayına görə isə 33-cü pillədə qərarlaşdı.

Gənclərin fəallığının artırılmasında, istedadlarının üzə çıxarılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Mehriban Əliyeva daim gənclərimizin uğurlarını yaxından izləyir və lazımınca stimullaşdırır. Heydər Əliyev Fondunun xəttilə reallaşdırılan tərəqqi layihələri gənclərin təşəbbüskarlığına əsl dəstəkdir. İşğaldan qurtarmış Qarabağa səfərlərə Prezidentlə bərabər ailə üzvlərinin də getməsi xalqımız, xüsusilə də gənclərimiz üçün tükənməz qürur mənbəyi olub. Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan ölkə əhəmiyyətli və beynəlxalq layihələr Azərbaycanın təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində əvəzsiz rola malikdir.

Dinamik həyat yaşayan bugünkü Azərbaycan gəncliyi doğma ana dilimizi, gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, öz karyerasını qurarkən, ilk növbədə, məhz müstəqil Azərbaycanın daha işıqlı gələcəyi haqqında düşünür, əməli fəaliyyətində yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirir.

Bu gün ölkəmizin öz tarixinin ən şərəfli dövrünü yaşaması həm də mübariz gənclərimizin xidməti sayılır. Azərbaycan gəncliyi torpaqlarımızı mənfur düşməndən təmizlədiyi kimi, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizi də yenidən qurmaq, cənnətə çevirmək üçün hər cür fədakarlıq göstərir. Döyüş səngərlərində vəzifəsini şərəflə BAŞA vuran gənclərimiz indi də Qarabağın və Şərqi Zəngəzurun zəhmət, hünər cəbhəsində öz sözünü qətiyyətlə deyir.

***Əli NƏCƏFXANLI***
***XQ***

---

**Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur.**

**Azərbaycan Prezidenti**
**İlham Əliyev**

# Türk dünyası bizim ümumi ailəmizdir



**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa verdiyi önəm Türk əməkdaşlıq təşkilatları ilə işbirliyi nəticəsində əldə olunmuş nailiyyətlərin də əsasını təşkil edir. Respublikamızın paytaxtında Türk əməkdaşlıq təşkilatlarından ikisinin – Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) mənzil-qərargahlarının yerləşməsi ölkəmizin Türk dünyası ilə əlaqələrini mahiyyət və keyfiyyətcə yeni mərhələyə yüksəltməsi istəyinin bariz göstəricisidir. Bundan başqa, türkdilli ölkələrin hamısında etiraf edirlər ki, bu qardaş xalqları tərəqqi yoluna aparan qatarın əsas lokomotivləri Türkiyə Cümhuriyyəti və Azərbaycandır. Dövlət başçımız dəfələrlə vurğulayıb ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir.

Məmnunuq ki, son zamanlar elə bir ay olmur ki, TDT-nin fəaliyyətinin daha da səmərəli olması üçün hansısa addımlar atılmasın. Bir neçə gün əvvəl qardaş Türkiyə Cümhuriyyətinin paytaxtında Azərbaycan, Türkiyə və Özbəkistan arasında imzalanmış Ankara Bəyannaməsi bu baxımdan xüsusi önəm kəsb edir. Mütəxəssislərin fikrincə, bu sənəd regional əməkdaşlıq, xüsusilə, Orta Dəhliz və Zəngəzur Dəhlizi vasitəsilə ticarət və investisiya əlaqələrinin gücləndirilməsi istiqamətində mühüm perspektiv vəd edir.

Ekspertlər yazırlar ki, Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Çin, Mərkəzi Asiya, Qafqaz və Avropa arasında əsas ticarət yoludur. Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının hesabatlarına istinad edənlərin fikrincə, hazırda Orta Dəhliz Çin və Avropa arasında ticarətin böyük bir hissəsini təşkil edir. Üstəlik, bu istiqamətdə daha böyük göstəricilər proqnozlaşdırılır. Azərbaycan Prezidentinin tez-tez xatırlatdığı infrastrukturun inkişafı və alternativ ticarət marşrutlarına artan tələbat Orta Dəhliz vasitəsilə yük daşımalarını sürətləndirəcək və ənənəvi dəniz yollarından daha qısa və əlverişli alternativlər təqdim edəcək. Adıçəkilən dəhlizdən istifadə edən bütün ölkələrdə etiraf edirlər ki, bu dəhliz vasitəsilə tranzit müddətlərini 10-15 gün azaltmaq potensialı mövcuddur.

Ankarada baş tutan tədbirə gəlincə, xüsusilə vurğulamalıyıq ki, Azərbaycanın, Türkiyənin və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşündə əsas müzakirə mövzularından biri olan Zəngəzur Dəhlizi Azərbaycanla ölkənin digər iqtisadi rayonu olan Naxçıvan arasındakı təxminən 40 kilometr uzunluğundakı nəqliyyat marşrutudur. Məlumdur ki, bu marşrut Orta Dəhlizin ən qısa keçid nöqtəsini təşkil edir. Təsadüfi deyil ki, beynəlxalq ekspertlər həmin yolu "Türk dünyasının qapısı" adlandırırlar. Bildirilir ki, bu dəhlizin açılması Mərkəzi Asiyadan gələn malların Türkiyə və Avropaya sürətli və effektiv şəkildə çatdırılmasına imkan verəcək. Beynəlxalq təşkilatların tədqiqatlarına görə, Zəngəzur Dəhlizi tam fəaliyyətə keçdikdən sonra bu dəhliz vasitəsilə illik 2 milyon ton yük daşınması gözlənilir ki, bu, Orta Dəhlizin tranzit imkanlarını daha da artıracaq.

Nazirlərin üçtərəfli görüşündə başqa bir mühüm nəqliyyat xətti də müzakirə olunub. Qeyd olunub ki, Bakı – Tbilisi – Qars dəmir yolu və logistika mərkəzlərinin inkişafı kimi əsas layihələr Orta Dəhliz üzərində ticarət axınlarını sürətləndirəcək. Qeyd olunub ki, Dünya Bankının hesablamalarına görə, bu istiqamətdə infrastruktur layihələrinə 2030-cu ilə qədər 10 milyard ABŞ dolları səviyyəsində investisiya qoyulacağı gözlənilir. Bu da regionda iqtisadi artımı sürətləndirəcək və ticarət əlaqələrini daha da möhkəmləndirəcək.

Qısası, Ankara Bəyannaməsi Azərbaycan, Türkiyə və Özbəkistanı daha sıx iqtisadi və nəqliyyat əməkdaşlığına yönəldən razılaşma olmaqla Orta dəhliz və Zəngəzur dəhlizlərinin inkişafına dəstək verəcək. Dəhlizlər vasitəsilə tranzit daşımalarının artması ölkələrin TDT daxilində ticarət dövriyyəsini yüksəldəcək, daha sürətli və sərfəli nəqliyyat marşrutları təmin edəcək. Orta Dəhliz vasitəsilə Çin və Avropa arasındakı ticarətin artması TDT ölkələri arasında ticarət dövriyyəsinin 2025-ci ildə hədəflənən 100 milyard ABŞ dollarına çatdırılmasında həlledici əhəmiyyətə malikdir.

Sonda xatırladaq ki, Ankara Bəyannaməsi barədə söz açarkən ötən il iyulun 6-da Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan "Qarabağ Bəyannaməsi"ni yada salmamaq mümkün deyil.

Çünki Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz, Macarıstanın Baş naziri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin iştirak etdiyi "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün "Qarabağ Bəyannaməsi"-nin 5-ci bəndində deyilir:

"Tərəflər ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa- – Türkiyə – Cənubi Qafqaz – Mərkəzi Asiya – Çini birləşdirən Trans – Xəzər Beynəlxalq Şərq – Qərb Orta Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırırlar".

"Qarabağ Bəyannaməsi"ndə qarşıda duran vəzifələrin icrası məqsədi ilə müvafiq qurumlara konkret tapşırıqlar da verilmişdir: "Bu məqsədlə nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi və dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılmasını tapşırırlar".

Fikrimizcə, Ankarada təşkil olunmuş görüş və imzalanmış Bəyannamə məhz "Qarabağ Bəyannaməsi"nin icrası istiqamətində atılan addımlardandır.

***İttifaq MİRZƏBƏYLİ***

## Tarix ittiham edir

# Ermənistan iqtidarı “əkdiyini biçmək”dədir

**(əvvəli 1-ci səhifədə)**

Hələ ötən ilin sonlarında – dekabrın 27-də itkin düşmüş hərbçilərin yaxınları etiraz aksiyası keçirərək İrəvanın mərkəzindəki və bir çox hökumət binalarının yerləşdiyi marşal İvan Baqramyan adına prospekti bağlamışdılar. Etirazçılar Milli Assambleyanın (parlament) rəhbərliyi, xüsusilə 44 günlük müharibə ilə bağlı yaradılmış parlament təhqiqat komissiyasının, eyni zamanda, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin rəhbəri Andranik Koçaryanla görüş tələb etmişdilər. Həmin gün yaxın vaxtlarda belə bir görüşün keçirilməsi ilə bağlı razılıq əldə edilmişdi. Nəhayət, yanvarın 30-da parlamentdə itkin düşmüş hərbçilərin yaxınları ilə qapalı görüş keçirilib. Görüş 5 saata yaxın davam edib.

Ancaq görüşün nəticələri itkinlərin yaxınlarını qane etməyib. Görüşdə gərginlik yaşanıb. “Joxovurd” qəzetinin bununla bağlı öz mənbələrinə istinadən yazdıqları maraq doğurur. Məlumata görə, qapalı iclas zamanı parlamentin sədri Alen Simonyan və A.Koçaryanla gərgin mübahisə nəticəsində itkin düşən hərbçilərin bəzi qohumlarının vəziyyəti pisləşib. Simonyan onları narahat edən suallarına cavab verməyən valideynlərə qışqırmağa başlayıb və bildirib ki, format onları qane etmirsə, gedə bilərlər.

Bundan sonra valideynlər də onun üstünə qışqırmağa başlayıblar. Mübahisəyə A.Koçaryan müdaxilə edib. Nəşr yazır ki, parlamentin tibb məntəqəsinin əməkdaşları halı pisləşənlərin təzyiqini ölçmək və valideynlərə dərman vermək üçün yuxarı qalxmağa məcbur olublar. Görüş parlamentin təxminən 200 nəfər üçün nəzərdə tutulmuş böyük zalında baş tutub, lakin bütün valideynlərə zalda oturmağa icazə verilməyib. Bir neçə nəfər içəridə əyləşib, qalanları isə mətbuat üçün ayrılmış və şüşə ilə örtülmüş yerdə oturdulub. Görüşün məqsədi valideynlərin qaldırdıqları suallara cavab verməli olan güc strukturlarının rəhbərləri ilə müzakirə aparmaq olub. Ancaq Ermənistan istintaq komitəsinin yeni təyin olunmuş rəhbəri, noyabrın 28-dən vəzifəsinin icrasına başlayan Artur Poqosyan iclas zamanı valideynlərə əsaslı cavablar verə bilməyib.

İtkin düşənlərin yaxınları istintaq komitəsinin keçmiş rəhbəri Arqişti Karamyanın 2024-cü il oktyabrın 15-də parlamentin tribunasından istintaq komitəsinin hər bir itkin düşmüş şəxslə bağlı fərdi araşdırma aparıldığını iddia etdiyi bəyanatı ilə bağlı konkret sual veriblər. Həmin vaxt Karamyan bildirmişdi ki, hər bir itkin düşmüş şəxslə bağlı kartoqrafik arayış və digər sübutlarla dəstəklənən hesabat var. Parlamentdə keçirilən iclasda valideynlər İstintaq Komitəsinin yeni rəhbərindən onlara oğulları haqqında fərdi məlumat verməsini tələb etsələr də, Poqosyan buna nail ola bilməyib. O, istintaq komitəsinin İrəvan şəhəri üzrə idarəsinin rəisi, əvvəllər baş hərbi istintaq idarəsinə rəhbərlik etmiş Ovannes Vardanyanı dəvət edib. Lakin Vardanyan danışmaqdan imtina edib ki, bu da valideynlərdə qəzəb doğurub.

Məhz bundan sonra A.Simonyan qışqırmağa başlayıb. Valideynlər, həmçinin, iclasda iştirak edənlər üçün anlaşılmaz olan mürəkkəb hüquqi terminlərdən istifadə edən baş prokuror Anna Vardapetyanın işindən də narazılıqlarını bildiriblər. “Hraparak” qəzeti isə yazır ki, milli təhlükəsizlik xidmətinin direktoru, 2022-ci ildən itkin düşmüş şəxslərin axtarışı komissiyasına rəhbərlik edən Armen Abazyan itkin düşənlərin valideynlərinin genetik ekspertizalarla bağlı suallarına konkret cavab verə bilməyib. Bir çox valideynlər onlara təqdim olunan nəticələrlə razılaşmır və təkrar müstəqil ekspertiza tələb edirlər.

“Hakimiyyət təmsilçiləri, həmişə olduğu kimi, toplaşanların sayıqlığını səngitməyə, onları mümkün olan hər şeyi



etdiklərinə inandırmağa çalışdılar ki, bu da orada olanları daha da hiddətləndirdi. Zalda periodik olaraq qışqırıqlar və uca səslər eşidilirdi, bəzi valideynlər əsəbi və həyəcanlı vəziyyətdə ara-sıra çıxıb gedir, sakitləşməyə çalışır, sonra geri qayıdırdılar” – deyə nəşr yazır.

Görüş zamanı valideynlər övladlarının və yaxınlarının tapılması üçün hansı tədbirlərin görüldüyünü, heç bir addım atılmayıbsa, buna nəyin mane olduğunu öyrənməyə çalışıblar. Müdafiə naziri Suren Papikyanın görüşdə iştirak etməməsi də itkinlərin yaxınlarının narazılığına səbəb olub. Əvəzində parlamentdə müdafiə nazirinin müavini Arman Sarkisyan, baş prokuror Anna Vardapetyan, ombudsman Anait Manasyan, polis rəisi Aram Ovannisyan, Ermənistan hökumətinin beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəsi Yegişe Kirakosyan və baş nazirin nümayəndələri iştirak ediblər.

Görüş ərəfəsində parlamentin həyətinə və binasına onlarla dövlət mühafizə işçisi yeridilib, həyətdəki mühafizəçilər silahlanıb. İclasa gələn itkin düşmüş şəxslərin valideynləri hərtərəfli yoxlanıldığı üçün görüş yarım saat gec başlayıb. Onların telefonları da müsadirə edilib. Müzakirə nəticəsində qərara alınıb ki, belə görüşlər mütəmadi olaraq keçirilsin, atılan hər addımla bağlı itkinlərin yaxınlarına məlumat verilsin. Parlamentarilər bir aydan sonra itkin düşənlərin yaxınları ilə yenidən görüşməyə razılaşıblar.

İclasda iştirak edən parlamentdəki müxalif “Hayastan” fraksiyasının üzvü Qarnik Danielyan bildirib ki, görüş zamanı emosional vəziyyət hökm sürüb. Dinləmələrdə iştirak edən “Şərəfim var” müxalifət fraksiyasının katibi Tiqran Abramyan isə deyib ki, hərbi quluqçuların yaxınları və hüquq müdafiəçiləri kifayət qədər əsaslandırılmış məruzələr və suallar hazırlayıblar. Eyni zamanda, onların bir çox şərhləri ilə bağlı dövlət strukturlarının təmsilçiləri ya deməyə söz tapmayıb, ya da cavablar itkinlərin yaxınlarını qane etməyib.

Qeyd edək ki, 2023-cü ilin oktyabrında Ermənistan istintaq komitəsi “Armenia Today”in sorğusuna cavab olaraq Birinci və İkinci Qarabağ müharibəsi, eləcə də lokal xarakterli antitteror tədbirləri zamanı 1016 nəfərin itkin düşdüyünü bəyan etmişdi. Erməni tərəfi daha iki hərbçisinin 2022-ci il sentyabrın 13–14-də baş vermiş sərhəd toqquşması zamanı itkin düşdüyünü iddia edir.

Bu məqamda qeyd etmək lazımdır ki, Birinci Qarabağ müharibəsi nəticəsində 267-si qadın olmaqla, 4 minə yaxın azərbaycanlı itkin düşüb. Onların arasında mülki şəxslər, o cümlədən uşaqlar da vardır. Ermənistan hökuməti onların taleyi ilə bağlı edilən çoxsaylı müraciətlərə bu günədək baxmayıb. Azərbaycan dövləti və xalqı işğala öz gücü hesabına son qoyduğu kimi, itkin düşmüş hesab edilən şəxslərin bir qisminin nəşini də torpaqlarımız azad edildikdən sonra aparılan qazıntı işləri nəticəsində aşkarlayıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev 2024-cü il oktyabrın 2-də keçirilən “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi” mövzusunda beynəlxalq konfransda çıxışında demişdir ki, bugünədək dövlət komissiyası tərəfindən işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış 18 kütləvi məzarlıqdan və görülmüş digər təxirəsalınmaz tədbirlər çərçivəsində 642 itkin şəxsə aid meyit qalığı ekshumasiya edilib.

Ümumiyyətlə, itkin düşmüş şəxslər faciəsi Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır fəsadlarından biridir. 2020-ci il Vətən müharibəsində isə 6 Azərbaycan vətəndaşı itkin düşüb. 44 günlük müharibədən sonra Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilmişdi. Həmin görüşdən sonra qəbul edilən bəyanatda deyilirdi ki, məhz azərbaycanlı itkin düşənlərin də Ermənistan tərəfindən geri qaytarılması müzakirə edilib. Avropa İttifaqının özü də bu məsələni bir reallıq kimi qəbul etmişdi. Bu mənada ilk növbədə bu suala cavab verilməlidir ki, 1990-cı illərin əvvəllərində Qarabağ və Şərqi Zəngəzur ərazilərində müharibə vaxtı itkin düşən azərbaycanlıların aqibəti nə yerdədir? Əgər onlar həyatlarını itiriblərsə, meyitlərinin qalıqları, yaxud sağdırlarsa onların hazırkı fiziki durumu nədən ibarətdir və niyə hələ də qaytarılmırlar? Halbuki, Ermənistanın təslimolma aktını imzalaması ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra Beynəlxalq Qırmızı Xaç Komitəsi qısa vaxt ərzində 1700 erməni hərbçisinin cəsədini toplayıb qarşı tərəfə təhvil vermişdi. Bu baxımdan Ermənistan iqtidarı hazırda vaxtilə yol verdiyi aqressiv əməllərə görə cavab verməkdə, necə deyərələr, əkdiyini biçməkdədir.

**“World Panorama” Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, baş verənlərlə bağlı Ermənistan hakimiyyətinin heç bir açıqlaması yoxdur. Onun sözlərinə görə,



rəsmi İrəvan nə edəcəyini, günahı kimin üstünə atacağını da bilmir: “Bütün bunlar göstərir ki, Ermənistan dövləti öz xalqının qarşısında gözükölgəlidir. Hazırda itkin düşmüş şəxslərin yaxınlarının suallarına cavab verə bilmirlər. Yaranmış vəziyyətin baiskarı onlar özləridirlər. Rəsmi İrəvan itkin düşmüş heab edilən şəxslərə bağlı onların yaxınlarına təzminat ödəməkdən də imtina edir”.

R.Məmmədova qeyd etdi ki, bu az imiş kimi Ermənistan hökuməti baş verənlərdən nəticə çıxarmır, Azərbaycanla sülh müqaviləsinin bağlanmasına mane olan məqamları aradan qaldırmaq istəmir və ölkə regionda dalan vəziyyətində qalmaqda davam edir: “Parlamentin sədri Simonyan itkinlərin yaxınlarına cavab verə bilməyərək qışqırmaq yolunu seçib. Bu, əslində, Ermənistan hökumətinin əsl yanaşmasını ortaya qoyur. Doğru-dürüst, arqumentlə cavab verə bilmədikləri üçün onlar çığır-bağır salır, sənədləri saxtalaşdırır, yanlış məlumatlar verirlər. Beləliklə, canlarını qurtarmağa çalışırlar. Ancaq itkin düşmüş şəxslərin yaxınları da geri çəkilənə oxşamırlar. Ermənistan hökuməti gələcəkdə belə hallarla üzləşməmək üçün sürətlə silahlanmadan, bölgədə təxribatçı əməllər törətməkdən əl çəkməli, reginda baş verən hadisələri ciddi təhlil etməli və ən azı öz xalqının gələcəyi üçün Azərbaycanla sülh müqaviləsi bağlamalıdır”.

*Səxavət HƏMİD*
*XQ*

# Gənclərin Vətən sevgisi estafeti



**Dünən Qərbi Azərbaycan İcmasında İcmanın Gənclər Şurasının təşkilatçılığı ilə “Qərbi Azərbaycana qayıdış” mövzusunda toplantı keçirilib.**

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbiri açıq elan edərək bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclərin rolu və dəstəyi mühüm əhəmiyyət daşıyır. Deportasiya ilə bağlı reallıqların, eləcə də irsimizin nəsildən-nəslə ötürülməsinin məhz gənclərin bu həqiqətlər barədə olan biliklərinə əsasən baş verir.

İcmanın Ağsaqqallar Şurası və Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxışı zamanı gənclərin Qərbi Azərbaycana qayıdış məsələsində fəal iştirakının əhəmiyyətini vurğulayıb. Deputat gənclərin gələcək həyatında önəm daşıyan xaricdə təhsillə bağlı dövlət proqramlarından da bəhs edib. O bildirib ki, təkcə ötən il 300-dək tələbə bu proqramlardan yararlanıb və onların bütün xərclərini dövlət öz üzərinə götürüb.

İcmanın Gənclər Şurasının və Milli Məclisin Gənclər və İdman komitəsinin sədri Şahin İsmayılov, “İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlı və başqaları çıxışlarında gənclərin günümüzün aparıcı-lokomotiv qüvvəsi olaraq Qərbi Azərbaycanla bağlı daha ətraflı məlumata malik olmalarının vacibliyini qeyd ediblər.

Daha sonra əslən Qərbi Azərbaycandan olan və bir sıra uğurlara imza atan 15 gəncin eləcə də İcma ilə səmərəli əməkdaşlığa görə 10 gənclər təşkilatının mükafatlandırılması həyata keçirilib. Ardınca İcmanın müxtəlif tədbirlərində iştirak etmiş 30 gəncə üzvlük vəsiqələri təqdim edilib.

*XQ*

# Qubada zəlzələ qeydə alınıb

**Quba rayonu ərazisində 3,2 maqnitudalı zəlzələ olub.**




Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, Quba stansiyasından 14 km cənub-qərbdə zəlzələ qeydə alınıb, lakin zəlzələ hiss olunmayıb.

*XQ*

# Türkiyə mediasının Azərbaycana mənəvi dəstəyi

**Millət vəkili Qaro Paylanın Azərbaycan əleyhinə bəyanatları kəskin tənqid edilib.**




Türkiyə mediası Xalqların Demokratiya Partiyasından (HDP) olan erməniəsilli millət vəkili Qaro Paylanın Azərbaycan əleyhinə bəyanatlarını tənqid edib.

“Yeni Akit” qəzeti “Hələ bu adam Türkiyənin çörəyini də yeyir” sərlövhəli məqaləsində deputatın Ermənistanın “3–5 il ərzində” Azərbaycana qarşı yeni təcavüzə hazırlaşması ilə bağlı sözlərinə diqqət çəkib.

Nəşr Qaro Paylanın Ermənistanın baş naziri Nikol Paşinyanla fotoşəklini paylaşıb, həmçinin onun erməni mətbuatına müsahibəsindən parçalara istinadla deputatın digərləri ilə yanaşı, İrəvanı “ABŞ və Fransanın güclü dəstəyini almağa” çağırdığını da qeyd edib.

Məşhur xəbər resursu “Haber7.com” da Türkiyə millət vəkilinin qalmaqallı müsahibəsini oxuculara çatdırıb.

Portal Qaro Paylanın mediada sözlərinin təhrif edilməsini əsas gətirərək Azərbaycana qarşı hücumlarını ört-basdır etməyə tələsdiyi müsahibədən sonra sosial şəbəkədəki paylaşımına da istinad edib.

*XQ*

# Ümumdünya Dinlərarası Harmoniya Həftəsi

**Ümumdünya Dinlərarası Harmoniya Həftəsi 2010-cu ildə BMT Baş Assambleyası tərəfindən təsis olunduqdan sonra fevral ayının ilk həftəsində qeyd olunan illik tədbirdir. Buili həftə “Sülh naminə birləşək” devizi altında keçirilir.**



İnsanlar arasında qarşılıqlı anlaşma, harmoniya və əməkdaşlığı gücləndirmək üçün müxtəlif dinlər arasında dialoqun zəruri olduğunu qeyd edən Baş Assambleya bütün dövlətləri dinlərarası harmoniya və xoşməramlılıq mesajını dünyanın kilsələrində, məscidlərində, sinaqoqlarında, məbədlərində və digər yerlərdə yaymağa təşviq edir. Fevralın 7-dək davam edəcək tədbirlər çərçivəsində insanlar könüllü olaraq öz dini ənənələrinə və ya əqidələrinə uyğun olaraq ibadət edəcəklər, ünsiyyət quracaqlar.

*XQ*

## Konstitusiya və Suverenlik İli

# Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi

*Fərhad ABDULLAYEV,*
*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri*






**(əvvəli ötən sayımızda)**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Konstitusiya Məhkəməsinin fəaliyyətinə bu cür yüksək qiymət verilməsi və etimadın göstərilməsi olduqca əhəmiyyətli və qürurverici olmaqla yanaşı, həmçinin böyük məsuliyyət deməkdir.

Fəaliyyət göstərdiyi ötən illər ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 588 qərar və 170 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılmış hüquqi mövqelər ilk növbədə Əsas Qanunun aliliyinin təmin olunmasına, əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsinə xidmət edir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən sorğu, müraciət və şikayətlər əsasında qəbul edilən qərar və qərardadlarda formalaşdırılan hüquqi mövqelərdə ilk öncə Konstitusiyanın müvafiq müddəalarına istinad edilir. Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında məhz Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi əsas götürülərək müvafiq hüquq normalarına hüquqi qiymət verilib.

Konstitusiya Məhkəməsi Plenumunun bu cür mühüm əhəmiyyət kəsb edən qərarlarından biri Azərbaycan Respublikası Ali Məhkəməsinin sorğusu əsasında qəbul edilən "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2023-cü il 26 dekabr tarixli Qərarında ilk olaraq qeyd edilib ki, Konstitusiyanın preambulasında xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq niyyəti ifadə edilmiş, həmçinin 7-ci maddəsinin I hissəsi ilə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilmişdir.

Hüquqi dövlətin əsas vəzifəsi insan hüquqlarına əsaslanmaq, bu hüquq və azadlıqları qorumaq və möhkəmləndirmək, hərəkət və davranışların qanuna uyğun olmasını, hər bir sahədə ədalətli hüquq qaydasının qurulmasını və inkişaf etdirilməsini təmin etməkdir.

Eyni zamanda, Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 13-cü maddəsinin I hissəsi, 29-cu maddəsinin I və II hissələrinə istinad edərək qeyd edib ki, Konstitusiya vərəsəlik hüququnu mülkiyyət hüququnun davamı olaraq, onun xüsusi forması kimi gördüyündən mülkiyyət və vərəsəlik hüquqlarını eyni maddədə konstitusiya təminatı altına almışdır. İstər mülkiyyət hüququ, istərsə də onun davamı olan vərəsəlik hüququ cəmiyyətin inkişafında əsas elementlərdən biridir.

Qeyd edilib ki, Mülki Məcəllədə vərəsəlik hüququnun xüsusi qəbul müddətinə bağlı tutulması mülkiyyət hüququna müdaxilənin qanuni əsasını təşkil etsə də, bu müdaxilə fərdi azadlığın və bazar iqtisadiyyatının ən əsas elementlərindən olan mülkiyyət hüququnun konstitusiya təminatına, mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla, hər hansı ictimai maraqlara cavab verməməklə yanaşı, mirasın açılması ilə mülkiyyət hüququna malik olan vərəsənin bu hüququnu qeyri-mütənasib şəkildə, hər hansı qanuni məqsədə xidmət etmədən məhdudlaşdırır.

Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin vurğulayıb ki, hüququn əsas prinsiplərindən biri də mülkiyyət hüququnun "zamansız" olması, başqa sözlə desək, mülkiyyət hüququnun müddətə bağlı olmamasıdır. Vərəsələrin davam edən mülkiyyət hüququ daşınmaz əşyadan faktiki istifadə etmək hüququnu nəzərdə tutduğu kimi, ondan istifadə etməmək hüququnu da ehtiva edir. Mülkiyyət hüququnun mütləqliyi və reyestr qeydiyyatının aşkarlığı (həqiqiliyi) şəraitində vərəsələrin mülkiyyət hüquqlarını tanımamaqla birtərəfli qaydada aradan qaldırılmasına icazə verilməsi mülkiyyət hüququnu ləğv etməklə yanaşı, həm də əldə edilmiş hüquq və hüquqi təminat prinsiplərini pozur.

Bu Qərarda göstərilənləri və Konstitusiyanın birbaşa hüquqi qüvvəyə malik olması barədə 147-ci maddəsinin II hissəsinin tələbini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlib ki, Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Konstitusiyanın 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilməlidir.

Artıq qeyd edildiyi kimi, Konstitusiya qanunvericilik sisteminin əsasında durmaqla, digər normativ hüquqi aktlara nisbətən ən yüksək hüquqi qüvvəyə malikdir. Ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi də öz növbəsində dövlətin Əsas Qanununun öyrənilməsinə, eyni zamanda, burada əks olunan müddəaların, prinsip və dəyərlərin cəmiyyətdə geniş şəkildə təbliğ edilməsinə daim xüsusi diqqət yetirir. Belə ki, hüquqi maarifləndirilmə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinin mühüm amillərindən biridir. Bununla da, gənclər arasında hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə işinin həyata keçirilməsi Konstitusiya Məhkəməsinin fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu məqsədlə ənənəvi olaraq hər il ölkəmizin müxtəlif bölgələrində ali təhsil müəssisələrinin tələbələri və orta məktəb şagirdləri arasında hüquq olimpiadaları keçirilir.

Xüsusilə vurğulanmalıdır ki, 2024-cü ildə keçirilən hüquq olimpiadası Məhkəməmiz üçün xüsusi məna daşıdı. Belə ki, hüquq olimpiadası 2024-cü ilin oktyabr ayında Xankəndi şəhərində yerləşən Qarabağ Universitetinin tələbələri, habelə Xankəndi və Şuşa şəhərləri, Füzuli, Laçın, Zəngilan və Xocalı rayonlarının orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında "Zəfər çalmış dövlətin Əsas Qanunu" mövzusunda keçirilmişdir.

İşğaldan azad edilmiş şəhər və rayonlarda tamamilə yenidən bərpa edilmiş təhsil müəssisələrində bu cür hüquq olimpiadasının keçirilməsi Konstitusiya Məhkəməsinin bütün kollektivi üçün unudulmaz və əlamətdar oldu.

Əminliklə deyə bilərik ki, hazırda dövlətimiz müstəqillik tarixinin ən qüdrətli, yüksək inkişaf mərhələsini yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi şübhəsiz ki, tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi oldu. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi müasir tariximizin ən parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının qürur mənbəyidir. Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 2021-ci il sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində qeyd etmişdir: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Xüsusi qürur hissi ilə qeyd edilməlidir ki, Vətən müharibəsində dövlətimizin qazandığı şanlı Qələbədən ilhamlanaraq 2022-ci ilin iyul ayında Konstitusiya Məhkəməsinin hakimləri və məsul əməkdaşlarından ibarət nümayəndə heyəti Məhkəmənin Plenumunda baxılmış üç qərarın elan olunması üçün Şuşa şəhərinə səfər ediblər. Dövlət başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti və Azərbaycan Silahlı Qüvvələrinin gücü, rəşadəti sayəsində işğaldan azad edilmiş doğma torpaqlarımıza səfər etmək Konstitusiya Məhkəməsi üçün xüsusilə əlamətdar hadisə oldu.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə də dövlətimiz siyasi-diplomatik müstəvidə ardıcıl olaraq yeni qələbələr əldə etməkdə davam etdi. Belə ki, 2023-cü il aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradıldı. Bu nəzarət-buraxılış məntəqəsinin yaradılması dövlətimizin Vətən müharibəsindən sonra əldə etdiyi növbəti tarixi nailiyyət olmaqla, Azərbaycanın bütün sərhədləri boyunca suveren hakimiyyətinin və nəzarətinin təmin edilməsi demək idi.

Dövlətimizin İkinci Qarabağ müharibəsində inamlı Qələbə qazanmasına baxmayaraq, Ermənistan tərəfindən hərbi təxribatlar müharibədən sonrakı dövrdə də davam etdirildi. Belə ki, Azərbaycan Ordusunun mövqeləri sistemli şəkildə atəşə tutulmuş, ərazilərimizin minalanması davam etdirilmişdir. 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlandı. 24 saatdan az müddətdə davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində Rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi.

Bununla da, Azərbaycan dövləti daha bir möhtəşəm qələbəyə imza atdı və bu tarix milli dövlətçilik tariximizə növbəti şanlı səhifə olaraq daxil oldu. Həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar oldu. Dövlətimizin və xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Qələbə sayəsində Dövlət Bayrağımız suverenliyimizin bərpa olunduğu bütün ərazilərdə əzəmətlə dalğalanır.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi, hərbi iradə və qətiyyəti, Ordumuzun qəhrəmanlığı sayəsində mümkün oldu.

2024-cü ilin may ayında daha bir olduqca mühüm əhəmiyyət kəsb edən, əlamətdar və tarixi hadisə baş verdi. Belə ki, məlum olduğu kimi, 2024-cü il mayın 24-də Qazax rayonunun dörd kəndinin Azərbaycana geri qaytarılması prosesi uğurla başa çatdırıldı. Dörd kəndin dinc yolla geri qaytarılması istisnasız olaraq dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli siyasətinin məntiqi nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti dövlətimizin zəfərlərinin davamlılığını təmin edir. Otuz ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını addım-addım geri qaytaran Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırır, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirirdi.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edildi. Sərəncama əsasən, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq hər il sentyabrın 20-sinin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi qərara alındı. Sərəncamda qeyd edilmişdir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Məlum olduğu kimi, cari il yanvarın 17-də tarixi məhkəmə prosesi başlanıldı. Qarabağdakı qanunsuz rejimin keçmiş "rəhbərləri" ilk dəfə hakim qarşısına çıxarıldı. Belə ki, Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən dövlətimizə və Azərbaycan xalqına qarşı bir sıra – sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə prosesi başlandı.

Dünya ictimaiyyətinin diqqət mərkəzində olan bu məhkəmə prosesi yalnız hüquqi bir hadisə deyil. Keçirilən məhkəmə prosesi bir daha qanunun aliliyini və tarixi ədalətin bərqərar edilməsini sübut edir.

Qeyd olunduğu kimi, dövlət başçısının 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib.

Əminliklə bildirmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı bu Sərəncam xüsusi əhəmiyyət kəsb edir. Respublikamızda "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi Azərbaycan dövləti üçün yeni inkişaf mərhələsinin başlaması istiqamətində önəmli addım olmaqla, ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olacaq. Sərəncam dövlətimizin gələcək inkişafı və eyni zamanda, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Dövlətimiz ildən-ilə güclənərək, inkişafının yüksək tərəqqi ilə xarakterizə olunan, keyfiyyətcə yeni dövrünü yaşayır. Dövlət Başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən effektiv dövlət idarəçiliyi, həmçinin təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər ümumilikdə müstəqilliyimizin daha da möhkəmləndirilməsini təmin edib.

Azərbaycan yaranmış yeni reallıqlar şəraitində qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoyub. Regionun lider dövləti olan və bölgədəki iqtisadi-siyasi proseslərin əsas iştirakçısı olan dövlətimizin sosial-iqtisadi potensialı 44 günlük Vətən müharibəsindən sonra daha da artdı. Ölkəmizin bilavasitə təşəbbüsü və iştirakı ilə uğurla realizə edilən bir sıra irimiqyaslı layihələr nəinki təkcə Azərbaycanın, eyni zamanda, ümumilikdə regionun təhlükəsizliyinə və iqtisadi inkişafına öz mühüm və əvəzsiz töhfəsini verir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi qarşıda duran ən mühüm və prioritet vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq proqramı həyata keçirilir, bərpa və yenidənqurma işləri sürətlə və planlı şəkildə davam etdirilir, müasir standartlara cavab verən infrastruktur formalaşdırılır. Mühüm məqam odur ki, burada dayanıqlı məskunlaşma və davamlı iqtisadi reinteqrasiya üçün bütün zəruri şərait yaradılır. İşğal illərində tamamilə viran qoyulmuş kənd, qəsəbə və şəhərlər tamamilə yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır.

İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində Qarabağ və Şərqi Zəngəzurda sürətlə davam edən bərpa-quruculuq işləri çərçivəsində nəhəng infrastruktur layihələri həyata keçirilib, qısa zaman ərzində geniş yol şəbəkəsi qurulub, tunellər çəkilib, beynəlxalq əhəmiyyətli dəhlizlər salınıb, hava limanları inşa edilib, yüksəkkeyfiyyətli, müasir texnologiyalarla təchiz edilmiş evlər, ictimai iaşə obyektləri tikilib.

Bu bölgədə aparılan bütün bərpa və yenidənqurma işləri dövlət başçısı cənab İlham Əliyevin bilavasitə nəzarətindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlər etməsi bu proseslərin qarşıda duran ən mühüm və həssas məsələlərdən biri olmaqla, hər zaman diqqət mərkəzində olduğunun təsdiqidir.

Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində də işlər uğurla həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə işğal dövründə dağıdılan dini, mədəniyyət və tarixi abidələrin bərpasına və inşasına olduqca böyük diqqət yetirilir.

Həyata keçirilən bütün bərpa və yenidənqurma işləri Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.

Vətən müharibəsindən sonra işğaldan azad edilən bütün ərazilərə yenidən həyat verilir, yurdlarından didərgin düşmüş sakinlər öz doğma el-obalarına qayıdırlar. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması ilə yanaşı, bu torpaqlara yerli əhalinin qayıtması Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı qarşıda duran ən vacib istiqamətlərdən biridir.

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq əhalinin qısa zamanda öz doğma torpaqlarına qayıtmaları istiqamətində dövlət tərəfindən bütün imkanlar səfərbər edilib. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb.

Bu ərazilərdə konstitusiya hüquqlarının tətbiq və təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Əhalinin hüquq və azadlıqlarının müdafiəsi onların sosial və digər vacib xidmətlərlə təmin olunması, eyni zamanda, bütövlükdə iqtisadi inkişaf üçün zəruri hüquqi şərait yaradır.

İşğaldan azad edilmiş ərazilərdə suveren hüquqların və azadlıqların təmin edilməsi məhz Konstitusiyanın aliliyinə əsaslanır. Bu ərazilərdə dövlət idarəetmə strukturlarının, həmçinin hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin təmin edilməsi insanların hüquqlarının və azadlıqlarının müdafiəsi üçün əsaslı və olduqca mühüm addımlardır.

Qeyd edilməlidir ki, həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq əlaqələrini də uğurla davam etdirir. Dövlətimizin xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri bu siyasətin müstəqillik və suverenlik prinsiplərinə əsaslanmasıdır. Azərbaycan tam müstəqil siyasət həyata keçirir və bunun nəticəsidir ki, ölkəmizə rəğbət, maraq daim artır, eyni zamanda ölkəmizə yüksək hörmət və etimad göstərilir.

Dövlət başçısı cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində qeyd etdiyi kimi: "Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib".

Azərbaycan özünü dünya birliyində ən mötəbər kürsülərdən öz haqlı mövqeyini nümayiş etdirən və bu mövqeyini qoruyan, eyni zamanda zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıdıb. Eyni zamanda, müasir beynəlxalq münasibətlər sisteminin tam və bərabərhüquqlu üzvü olan ölkəmiz hər il mötəbər, beynəlxalq miqyaslı konfranslara, qlobal forumlara, zirvə görüşlərinə və digər mühüm tədbirlərə, ikitərəfli və çoxtərəfli görüşlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına layiqincə ev sahibliyi edir.

Ötən 2024-cü ildə də Azərbaycanda bir sıra mühüm beynəlxalq tədbirlər keçirilmişdir. Məlum olduğu kimi, ötən ilin noyabr ayında ölkəmiz Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a ev sahibliyi etmişdir. COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olmaqla, qlobal səviyyədə bir nömrəli dövlətlərarası konfransdır.

COP29 tədbiri dünyada iqlim dəyişmələri ilə bağlı məsələlərin həll edilməsində yeni konseptual yanaşmaların tətbiqində və maraqlı tərəflər arasında səmərəli əməkdaşlığa əlverişli şərait yaradan platforma qismində çıxış etdi. Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizə olan etimad və inamın göstəricisi idi. Şübhəsiz ki, dünya birliyinin Azərbaycana göstərdiyi bu inam və etimad Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi nüfuzu, həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin, diplomatik məharətinin bilavasitə nəticəsidir.

Əminik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycanı yeni dövrdə inkişafının mühüm mərhələsi gözləyir. Dövlətimiz və xalqımız tarixi nailiyyətlərə imza atmaqda davam edəcək. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz növbəsində, müəllifi Ulu öndər Heydər Əliyev olan Əsas Qanunun aliliyinin təmin edilməsi, hüquqi dövlət quruculuğu və müstəqil dövlətimizin möhkəmlənməsi istiqamətində dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən məsuliyyətli vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə daim çalışacaq.

# Erməni siyasi şüurunun “Paşinyan sindromu”



## II MƏQALƏ

**“Hiyləgər təhlükəli oyun nəyisə həll etmir, yalnız fayda götürmək üçün situasiyanı manipulyasiya etməyə yönəlir”**

*Ammar FAUZİ*

### “Başqaları da bizə oynamalıdır...”

Əslində, bu iqtibasın ermənilərə aidiyyatı yoxdur, çünki buna intellektual gücləri çatmır və konkret siyasi praktikaları da yoxdur. Ancaq paradoks da ondadır ki, bir vaxtlar ABŞ prezidendi olmuş Riçard Niksonun dünyaya qoymaq istədiyi oyun qaydasının məntiqini cırtdan və qondarma Ermənistanın baş naziri Nikol Paşinyan Qafqaza tətbiq etməyə cəhd göstərir. Riçard Nikson demişdi: “Biz öz qoyduğumuz qaydalar üzrə oynamalı və başqaları da bu qaydalar üzrə oynamalıdır!” Təcrübə göstərdi ki, bunu ABŞ sona qədər bacarmadı və indi tərəddüdlü vəziyyətdədir.

Liviya ictimai xadimi Ammar Fauzi də yazır: siyasət özlüyündə elə təhlükəli oyundur ki, “vəziyyətlər oyunçuların arzularından asılı olmur”. Bunun mənası ondan ibarətdir ki, qədim ərəblər demişkən, siyasətdə “işləri gizli görməmək daha yaxşıdır”. Əlbəttə, müasir siyasətdə işləri gizli görmək fayda verir. Çünki informasiya müharibəsi çox genişlənmişdir. Lakin imkanla məqsəd bir-biri ilə ziddiyyət təşkil etməməlidir. Bu mövzuda I məqalədəki sonuncu tezisə görə erməni siyasi şüurunda mental paradoks qalır. Onun bazasında erməni müstəsnalığı mifi vardır. Bəs o halda sindrom deyə biləcəyimiz məqamın mahiyyəti nədən ibarətdir?

Onun təməlində erməni siyasi şüurunu yeniləşdirmək adı altında növbəti “intellektual hiyləgərlik” dayanır. Əgər doğrudan da erməni siyasi şüurunda real yeniləşmə və müasirləşmə olmasını istəsəydilər, onda ilk olaraq erməni müstəsnalığından imtina etməliydilər. Burada söhbət N.Paşinyandan gedirsə (əslində, “Paşinyan” da burada rəmzdir - əsas məsələ bu prosesi başlayan siyasi və ya geosiyasi subyektlə, məsələn sorosçularla, bağlıdır), faktlardan mahiyyətə nüfuz edə bilərik.

Fakt kimi N.Paşinyan iqtidarının israrla konstitusiyada müəyyən bəndləri ləğv etməmək üçün minbir oyundan çıxmasını göstərmək olar. Söhbət ondan gedir ki, Azərbaycan Ermənistanın Konstitusiyasında yer almış və qonşu dövlətlərə ərazi iddiasını əks etdirən müddəaların ləğv olunmasını tələb edir. Həqiqi mənada yenilənmək istəyən siyasi şüur, çox da düşünmədən düzgün seçim edərdi: “bəli, bu bəndin qalması müasir mərhələdə konstruktiv qonşuluq siyasətinə tərsdir və belə davam edə bilməz” qərarını verərdir. N.Paşinyan və onun komandası nə etməkdədir? Onların davranışları (“davranışları”, yəni verdikləri sözlərlə konkret atdıqları addımların qarşılıqlı müqayisəsi) göstərir ki, hələ də “klassik bədbəxt təsadüflər” qalır. Lakin bir incəliklə.

L.Ter-Petrosyan, S.Sarkisyan, R.Koçaryan və onların tör-töküntülərindən fərqli olaraq N.Paşinyan və komandası məhz erməni cəmiyyətinin siyasi şüurunun yeniləşməsi naminə birbaşa Azərbaycanın tələbini yerinə yetirməyin riskli olduğunu irəli sürürlər. Bu diplomatik ibarəni qaldırsaq, görünər ki, N.Paşinyan guya yeniləşmə tərəfdarıdır və Azərbaycanın tələbini doğru sayır, lakin bunun reallaşması naminə erməni cəmiyyətində qalmaqda olan sindromları da nəzərə almalıdır. Bu “arqument”in bəhanə olduğunu hansı faktlar göstərir?

Bu suala cavabı iki istiqamətdə axtarmaq olar. Birinci istiqamət N.Paşinyanın dünyanın böyük gücləri arasında siyasi-diplomatik manevrlərinin ümumi xarakteristikası ilə bağlıdır. İkinci istiqamət Ermənistanın militarizasiyası prosesinin özünün yeni məzmun mərhələsinə keçməsidir. Burada “militarizasiya” yalnız silahlanmanı nəzərdə tutmur, o, həm də bu silahlanmanın arxa planda xəyali aqressiyaya qarşı “cavab tədbirləri” kimi təqdim etməyi ehtiva edir. Bəs bu xəyali təcavüzkar kimdir? Rəsmi İrəvan açıq və ya gizli, havadarlarının dili ilə və ya öz dili ilə, ünvanı göstərir: Azərbaycan və Türkiyə! Burada bir qədər nəzəri kontekstdən praktiki müstəviyə “enməli” olacağıq.

### Yeniləşmə fonunda xarici təhlükə axtarışı

Bu məqam mental-siyasi şüur paradoksu üzərində qurulan əsas “yeniləşmə motividir”! Çox təəssüf ki, belədir, lakin N.Paşinyanın siyasi manevrlərinin hamısı bu məqamda fokuslaşır. Yəni sözdə hər nə qədər fərqli görünməyə can atsa da, müxtəlif gəlişi gözəl politoloji terminologiyadan istifadə etsə də, onların praktikaya proyeksiyasında Azərbaycan və Türkiyənin timsalında düşmən obrazını yeni şərtlərə uyğunlaşdırmaqdan başqa bir şey yoxdur! Bunun ən azı üç aspektdə təzahürü özünü göstərir.

**Birincisi,** ənənəvi havadarı Rusiyadan üzdöndərmə “fəlsəfəsi”dir. Qısa mahiyyəti: erməniləri Azərbaycan və Türkiyədən, yəni xarici təhlükələrdən lazımi səviyyədə qoruya bilmədiyi üçün Rusiya artıq Ermənistana strateji müttəfiqliyə yaramır.

**İkincisi,** İran da lazımi səviyyədə vurğulanan təhlükədən Ermənistanı qoruya bilmədi (hərçənd II Qarabağ müharibəsinin gedişində müəyyən hərbi əngəllər törətdi, gizli informasiya və ideoloji dəstək verdi, məscidləri təhqir məsələsində ermənilərin üstünə getmədi, humanitar yardımını əsirgəmədi və s.). Postmüharibə mərhələsində də rəsmi Tehran vəd verir, lakin əməl etmir.

**Üçüncüsü,** Ermənistan rəhbərliyi kollektiv Qərbə (ABŞ+Aİ) məhz Azərbaycan və Türkiyədən xarici təhlükə mənbələri kimi qorunmaq adı altında üz tutmaqdadır. Zəngəzur Dəhlizi ilə bağlı Vaşinqton və Parislə aparılan erməni siyasi-diplomatik oyununun indiki mərhələdə əsas mahiyyəti bundan ibarətdir.

Eyni qaydada rəsmi İrəvanın qlobal miqyasda hay-küy saldığı “dünyaların kəsişməsi” hoqqabazlığı da həmin məqamla sıx əlaqəlidir. Təsadüfi deyildir ki, bütün bunların dərinliyi, dəqiqliyi və strateji mənaları ilə bilən Azərbaycan Prezidenti çox sadə bir suala cavab soruşur: “Azərbaycansız Cənubi Qafqazda “dünyalar necə kəsişə” bilər? Bu dərin sualın müxtəlif siyasi, geosiyasi və diplomatik anlamlarına baş vurmuruq, biz bircə məqama aydınlıq gətirmək istəyirik.

Həmin məqam belədir. Əgər N.Paşinyan siyasi xətti həqiqi mənada yeniləşmək istəyirdisə, ondan ilk növbədə uzun müddətdir ki, erməni siyasi şüurunun siyasi sindromu olan azərbaycanlıları, türkləri və ümumiyyətlə, müsəlmanları saya salmamaq kimi xülyadan əl çəkməli idi.

N.Paşinyanın, məsələn, daha primitiv olan R.Koçaryandan və ya S.Sarkisyandan fərqi ondan ibarətdir ki, həmin “bədbəxt təsadüf” elementini Qərb politoloji terminləri ilə daha çox dövlətlərarası münasibətlərin müasir formalarına uyğunlaşdırmağa çalışır və onun adını “yeniləşmə” qoyur. Bunun üçün iki priyomdan istifadə edir – birincisi, “Ermənistan sülhüsevər dövlətdir” tezisini ortaya atır, ikincisi, əsas qayğısının Azərbaycan və Türkiyənin yaratdığı təhlükələri neytrallaşdırmaqdan ibarət olduğu təəssüratını yaratmağa çalışır. Bundan çıxış yolunu isə “təbii ki, sivil və xeyirxah xristian dövləti kimi hamıya sərf edən əməkdaşlıq formulu” təklif etməkdə görür.

Bununla N.Paşinyan özü də hiss etmədən mental-siyasi paradoksdan militarizasiyaya keçidinin geosiyasi kontekstini yaratmaq cəhdi ilə əslində, yeni ziddiyyətli situasiyaya düşür. Bu situasiya qonşu dövlətlərin, eyni zamanda, həm təhlükəli ölkə imicini yaratmaq, həm də onları da əhatə edən absurd platforma təşkil etməkdən ibarətdir. N.Paşinyanın siyasi şüur sindromunun ən zəif nöqtəsi buradır. Çünki bu məqam yalnız Ermənistan siyasi şüuru ilə sərhədlənmir, avtomatik olaraq qlobal miqyası əhatə edir. Qlobal siyasi şüur isə bu cür siyasi manevrləri çox yaxşı bilir.

### “Soyqırımı” nağılının son nəfəsi

Bu da siyasi şüur hadisəsi olaraq maraqlıdır. Çünki N.Paşinyan faktiki olaraq “soyqırımı” nağılını arxa plana atmağa məhkumdur. Bunu o, Türkiyəni xəyali tarixi olaylara görə deyil, indiki davranışlarına görə təhlükə mənbəyi kimi göstərmək naminə edir – ittiham köhnə, “arqumenti yeni”. Məsələ ondan ibarətdir ki, “erməni soyqırımı”nın siyasi və geosiyasi ittihamının banisi Qərbdir. Ancaq onun XX əsr boyu və XXI əsrin ilk onilliklərində başlıca istifadəçisi Rusiya olmuşdur. İndi Ermənistan Rusiyadan üz döndərirsə, avtomatik olaraq “soyqırımı”n indiyə qədər istifadə olunan məzmun və məqsədini də dəyişməlidir.

Bir tərəfdən, “Qərbin günahı yoxdur” təəssüratını yaratmalıdır ki, Azərbaycan və Türkiyə nəyəsə inansın, digər tərəfdən isə günahı tam olaraq Moskvanın üzərinə atmaqla daxili auditoriyanın siyasi şüurunun şovinist qisminə ciddi təsir edir. Axı, həmin şüurdan uzun müddət “soyqırımı” hay-küyündən dividend götürmüşlər! Bununla da kütləvi erməni siyasi şüurunda Azərbaycan və Türkiyənin xarici təhlükə mənbəyi kimi mövcud olmasında bütün günahları Rusiyanın üzərinə atmağa çalışırlar.

O halda, bir qədər sonra rəsmi İrəvanın versiyasında “soyqırımı” nağılının tamamilə fərqli ssenarisinin meydana çıxa bilməsini gözləmək olar. Hələlik N.Paşinyan sindromu ənənəvi təsəvvürləri dəyişməyə yeniləşmə adı altında cəhdlər edir. Bu mərhələdə onların başlıca məqsədi neqativ və qondarma halları aradan qaldırmaq deyildir, hazırlanan erməni siyasi şüurunda Azərbaycan və Türkiyənin xarici təhlükə mənbəyi kimi “daha inandırıcı və real” obrazını yaratmaqdır.

Beləliklə, erməni siyasi şüurunun “Paşinyan sindromu”nun ilk əlamətlərini müyyən etmək olar. Onlar mental-siyasi paradoks üzərində qurulan xarici təhlükə axtarışları ilə bağlıdır. Bunun üçün əsas üsul olaraq militarizasiya və qonşuları ənənəvi qınama üsullarından imtinadan istifadə edilir. Belə təəssürat yaradılır ki, Ermənistan “qonşulara qarşı” hər hansı iddiada deyil, əksinə onlarla münasibətləri konstruktiv aspektdə təşkil etməyə çalışır, ancaq bir şərtlə...Bütün münasibətlər sistemi “müasir dünyanın sivilliyinə və beynəlxalq hüququn normalarına uyğun, postvestfal dünya düzümü qaydaları çərçivəsində” olmaldır. Bunun üçün isə rəsmi İrəvan həm regional münasibətlərin “yeniləşməsi”ni istəyir (sərhədlərin müəyyən olunması), həm də regional əməkdaşlığın yeni platformasına (absurd “dünyaların kəsşiməsi” layihəsi) üstünlük verir.

Bunlar erməni siyasi şüurunun “Paşinyan sindromu”nun əlamətləridir, lakin tam siyahı deyildir. Həm də onları təqdimetmə formasına baxsaq, ilk olaraq sindromluqları hiss olunmaya bilər. Mental-siyasi paradoksallıq, militarizasiya, xarici təhlükə axtarışları və regional əməkdaşlıq platforması axtarışları ilğım kimi özünü başqa faktorların işığında daha aydın göstərir. Həmin kontekstdə onların demokratiklik, liberallıq, yenilik və sivillik maskaları tam yırtılır və altından rəsmi İrəvanın “yeniləşmə kursu”nun əsl siması görünür. O faktlar hansılardır?

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

***(əvvəli qəzetin ötən saylarında)***

İqtisadiyyat naziri prezident Hollanda olan nifrətini get-gedə daha açıq şəkildə göstərir. Aprelin əvvəllərində Amien şəhərində təşkil olunan seçicilərlə ilk görüşündən bir neçə gün əvvəl, nazir Makron prezident Hollandın gələcək kampaniyası üçün Yelisey sarayında təşkil olunan seminara gəlmir. O, yalnız bu münasibətlə verilən naharda iştirak edir. Ən başlıcası da odur ki, Hollandın komandası JDD jurnalına seminarda iştirak edənlərin adlarını verir. İqtisadiyyat nazirinin adı o siyahıda yoxdur...

İlin əvvəlindən (2017) Makron tərəddüd etmədən hara getdi, harada oldu, yeri gəldi, gəlmədi, prezident Hollandı tənqid atəşinə tutur. Qışın ortalarında prezidentlə Baş nazir Manuel Valls arasında terroristləri vətəndaşlıqdan məhrum edib-etməmək haqqında fikir ayrılığı yaranır. Təbii ki, öz aralarında – mətbuatda və ictimai yerlərdə yox. Düzdür, Makron Kristian Tobira (Ədliyyə naziri) kimi deyil. Amma gənc İqtisadiyyat naziri qəsdən belə bir söz-söhbət yayır ki, guya, o, bu məsəldə Baş nazir Manuel Vallsın mövqeyini dəstəkləmir. Əslində, bu çox real və düzgün bir mövqe idi. O dövrdə Makron, hər şeydən əvvəl, fürsətdən istifadə edib Hollanddan bezən sosialistlərin rəğbətini qazanmağa çalışırdı. Etiraf edək ki, əla texnika idi. Əslində, Makronun motoru lap çoxdan – 2015-ci ilin yayından işə düşmüşdü.




### Lankaster hotelində gizli görüşlər

O vaxt bu məsələdən bir neçə nəfərin xəbəri vardı. Ancaq onun toy şahidlərindən biri, keçmiş Baş nazir Mişel Rokarda yaxın olan milyonçu Henri Hermand Makronu məcbur edir ki, prezident olmaq istəyini mümkün qədər tez ortaya çıxarsın.

Uzun illərdir ki, bu iki nəfər Hermandın ofisinin iki addımlığında, Parisin 8-ci rayonunun Lamennis küçəsində yerləşən Lankaster hotelinin restoranında bir yerdə ya nahar edir, ya da axşam yeməyi yeyirlər. Restoranda onlar üçün xüsusi bir salon ayrılıb – o salon ki, vaxtilə orada Marlen Ditriş, Qreta Qarbo və ya Bürt Reynold kimi məşhur artistlər nahar ediblər. Bu iki adam bir-biri ilə qeyri-rəsmi danışır, bir birinə “sən” deyə müraciət edir, hətta hərdən bir-biri ilə sərt mübahisələr də edirlər. Hermand gənc dostuna hər şeyi, o cümlədən onun həyasızlığını və tərsliyini bağışlayır, bəzən onu zarafatca “cavan canavar” deyə çağırır.

Bu sosial-liberal əvvəllər Mişel Rokarda maddi cəhətdən dəstək verib. Sonralar isə mətbuata, o cümlədən 1980-ci illərdə “Le Matin de Paris” qəzetinə, eləcə də “Le Un” jurnalına sponsorluq edib. Makronla Rokarddan başqa, Hermand müntəzəm olaraq Fransua Holland, Marisol Turan (2012-2017-ci illərdə Səhiyyə naziri), nadir hallarda Manuel Valls, həmçinin Sarkozinin naziri olmuş Kristian Blan, eləcə də sağçılar partiyasının nüfuzlu şəxsiyyətləri Dominik dö Villpənt və Jan-Lui Debre ilə də çörək kəsir. Bu insanın öz vərdişləri var. Belə ki, o, hər cümə axşamı ya şəhər kənarındakı mülkünə qayıdır, ya Brehat adasındakı evinə gedir, ya da Mərakeşə – Tanjer şəhərindəki malikanəsinə uçur. Yayda bir-iki dəfə ikinci arvadı Beatrislə birlikdə Brijit və Emmanuel Makron ilə nahar edir. İki dost tək qalanda, nahardan sonra ya siqar çəkir, ya da yaşıl şartröz likörü içirlər. Onların axşam yeməyi bəzən gecə saat 2-yə qədər uzanır. Belə vaxtlarda, ikisi də qalstuklarını çıxarıb kənara atır, sonra “cavan canavar”ın gələcəyi haqqında danışırlar. Onlar bir-birinə etibar edir, bir-birinə güvənir və bir-birini dəstəkləyirlər. Ancaq bəzi sirlər bu dəbdəbəli restoranın divarları arasından çıxır: “Görəcəksiniz, günlərin bir günü o, (Makron) prezident olacaq”, – deyə Hermand hələ Fransua Hollandın beş illik hakimiyyətinin ilk ilində bu sözləri yaxın bir adamının qulağına pıçıldayır.

Qətiyyən təəccüblü deyil ki, Makron İqtisadiyyat naziri keçən kimi, 2003-cü ildə Mişel Rokard, Dominik Stros-Kan və Pier Moskoviç tərəfindən yaradılmış “Avropa solçuları” assosiasiyasının şəbəkələrinin bir hissəsini ələ keçirir. Üç ildən sonra bu birliyə Marisol Turan başçılıq edir. Orada 2006-cı ildə Dominik Stros-Kanın namizədliyini dəstəkləyən gənclərə rast gəlmək olar. İsmael Emelien, Sedric O, Benjamin Qrivo və Stanislas Qerini artıq oradadırlar. Bu adamların, demək olar ki, hamısı 2015-ci ilin payızında – Makron "Hərəkətdə!" hərəkatını yaradanda – ona qoşulacaqlar. Hələlik isə bu gənc nəsil, Dominik Stros-Kan Sosialist Partiyasının birinci katibi Martin Obri ilə mübarizədə uduzandan sonra, nazirlər kabinetinin strategiyasını tənqid edən Pier Moskoviçini dəstəkləyəcək. Ancaq buna baxmayaraq, ən yaxşı kartlar Makronun əlindədir. O, Hollandın ətrafındakı Jan-Pyer Juyeni, (Ümumi Maliyyə İnstitunun direktoru) eləcə də keçmiş Baş nazir Mişel Rokardın siyasətini dəstəkləyən Jerom Kauzakı yaxşı tanıyır. 2010-cu ildən Milli Assambleyada maliyyə komissiyasının direktoru olan bu adam da iddialı gəncə (Makron) kifayət qədər simpatiya bəsləyir. 2011-ci ilin iyun ayında Makron Mişel Rokardı, Jerom Kauzakı və 2012-ci ildə prezidentliyə namizədliyini irəli sürən Fransua Hollandı və onun həyat yoldaşı, jurnalist Valeri Trierveyeri şam yeməyinə dəvət edir. “Makron özü, heç vaxt heç bir kollektiv yarada bilməyib, o, ancaq qurulmuş, hazır şəbəkələrdən istifadə edib”, – deyə onun köhnə həmkarlarından biri acı-acı etiraf edir. 2017-ci il prezident seçkiləri gələndə, bu sosialist şəbəkələrin hamısı, sözün əsl mənasında, solçu olmasalar da, Sosialist Partiyasından olan namizəd Benua Hamonu yox, "Hərəkətdə!" hərəkatının banisi, heç bir partiyası olmayan Makronu dəstəkləyəcəklər.

### Rəqiblərə qarşı mübarizə

"Hərəkətdə!" siyasi hərəkatını yaratmaq fikrinə düşəndə, Makron bu arzusunu ancaq iki nəfərlə bölüşdü: 2007-ci ildə Att ali komissiyasında tanış olduğu Sanofi şirkətinin prezidenti Serj Veynberq və biznes advokatı Jan-Mişel Darrua ilə. Onların hər ikisi bu iddialı gənci Rotşild bankının maliyyə müfəttişi Fransua Henrota tapşırırlar. Darrua, Rotşild bankının prezidenti David dö Rotşildin qardaşı qızı Bett ina Rems ilə ailə həyatı qurub. Bundan başqa, Veynberq və Darrua Fransanın siyasi dünyasını çox yaxşı tanıyırlar. Onlar ikisi də keçmiş Baş nazir Loran Fabiüsün yaxın adamlarıdır. Biri 1980-ci illərin əvvəllərində onun kabinet direktoru olub, digəri isə vaxtilə onun vəkili. 2016-cı ilin mart ayında Fransua Hollandın Xarici İşlər naziri, Konstitusiya Şurasının sədri vəzifəsinə təyin olundu. Beləliklə, bu adamın siyasi karyerası başa çatdı. Təbii ki, onun şəbəkələrini kimsə özünə götürməlidir. Bu, Makronun gözündən yayınmadı. Xüsusilə Loran Fabiüs “yabanı çiyələk” adlandırdığı Fransua Hollandın prezident seçkilərindəki qələbəsini həzm edə bilmədiyindən, bütün gücünü balaca Emmanuelin siyasi macərasına həsr etməyi qərara alır. Paralel olaraq, zirvələri fəth etmək arzusunda olan bu iddialı gənc bankir, (Makron) keçmiş Baş nazirin qanadının altına yığdığı adamlardan istifadə etməyə başlayır. Məsələn, vaxtilə Fabiüsün dövlət katibi olmuş Florans Parli və onun əri, APE (Dövlət İştirakı Agentliyi) şirkətinin direktoru Marta Vialdan, eləcə də Fabiüsün şəbəkəsindən olan Müriel Penikodan. (1991-ci ildə Martin Obri Əmək naziri olanda, bu sonuncu, onun kabinetində işlədiyinə görə hamı ona keçmiş Əmək nazirinin yaxın rəfiqəsi kimi baxırdı)

Makronun sosialist texnokratiyasından ələ keçirdiyi şəbəkələr, vaxtilə Stros-Kanı dəstəkləyən gənclərin bandasından qat-qat mürəkkəbdir. Yelisey sarayının gələcək baş katibi Aleksi Kohler də İqtisadiyyat Nazirliyində əvvəl Moskoviçinin, sonra da Makronun kabinet direktoru olmamışdan əvvəl Fabiüsün şəbəkələrində olub. Bir vaxtlar Aleksi Kohler Sedrik O. ilə birlikdə Loran Fabiüsün rəhbərlik etdiyi bir qrupda çalışıb. O vaxt bu qrup Fransua Holland prezident seçiləndən sonra ilk yüz gündə ölkə üçün nə işlər gördüyünü araşdırırdı. Moskoviçi və Fabiüs kimi texnokratlar neoliberalizm və qloballaşma ideyalarını dəstəkləyirlər, özü də çoxdan. 1980-ci illərdə Fransua Mitteranın Baş naziri olanda, həmin Loran Fabiüs, nəinki Fransanın maliyyə bazarlarını liberallaşdırmışdı, hətta ölkə bazarlarının qapılarını Avropa rəqabətinin üzünə açmışdı.

Paralel olaraq, Makron rəqiblərini sıxıb qurutmaqda davam edir. Bu məqsədlə o, 2007-ci il prezident seçkilərindən bəri mərkəz solçuları və mərkəz sağçıları canı-dildən müdafiə edən, yüksək səviyyəli siyasi məmurların birləşdiyi Qrak qrupunu da ələ alır. Bu qrupda kimlər yoxdur? Jan-Pierr Juyet (Fransua Hollandın prezidentliyi zamanı Yelisey sarayının Baş katibi), Stefan Bujnah (Eronext şirkətinin prezidenti və baş direktoru), Fransua Villeroy dö Qalo (Fransa Bankının prezidenti və baş direktoru), Erik Lombard (Dövlət Əmanət kassasının prezidenti və baş direktoru), Nikola Düfurq (İctimai İnvestisiya Bankının (BPI) prezidenti və baş direktoru), Bernard Spitz (Fransa Sığorta Federasiyasının prezidenti və baş direktoru), Qiyyom Hannezo (Rotşild bankının keçmiş ortağı) və hətta Denis Oliven (FNAC mağazasının və Avropa-1 radiosunun keçmiş baş direktoru, bu gün Çex milyarderi Daniel Kretinskynin media şöbəsinin rəhbəri). Hollandın beş illik hakimiyyəti dövründə bu yüksək səviyyəli məmurların hamısı Baş nazir Manuel Vallsa simpatiya bəsləyirdilər. 2015-ci ilin noyabrında – Parisdə islamçı terroristlərin Bataklan konsert zalına hücumundan bir neçə gün sonra – Emmanuel Makron Fransanın texnokrat və kapitalizm dünyasının bu möhtərəm nümayəndələri qarşısında onların qəlbini oxşayan bir çıxış edir. O gündən texnokratiyanın əsl sintezi olan bu qrup Emmanuel Makronun xidmətinə keçir.

**(ardı var)**

# AYİB-in Azərbaycan üçün yeni dəstək strategiyası

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Direktorlar Şurası Azərbaycan üçün növbəti 5 ildə investisiya və siyasət təşəbbüslərini rəhbər tutan yeni ölkə strategiyasını təsdiqləyib.**

Sənədə əsasən, qurum ölkəmiz üçün iki əsas prioriteti müəyyənləşdirib. Həmin prioritetlərə daha güclü, daha rəqabətli və inklüziv özəl sektor və təkmilləşdirilmiş idarəetmə vasitəsilə daha çox iqtisadi diversifikasiyanın təşviq edilməsi; "yaşıl" iqtisadiyyata keçidin sürətləndirilməsi və regional əlaqənin təkmilləşdirilməsi daxildir.

Birinci prioritet çərçivəsində AYİB Azərbaycanın özəl sektorunun rəqabət qabiliyyətini və inklüzivliyini artırmaqla karbohidrogen ixracından asılılığını aradan qaldırmağı hədəfləyir. Bu məqsədlə bank ölkəmizlə bağlı investisiya və məsləhət dəstəyini aqrobiznes, istehsal və xidmətlər, informasiya və kommunikasiya texnologiyaları, eləcə də infrastruktur kimi qeyri-neft sektorlarında kiçik və orta müəssisələrə yönəldəcək.

Bank Azərbaycanda qadınların və gənclərin rəhbərlik etdiyi müəssisələrin səlahiyyətləndirilməsinə, daha böyük rəqabət qabiliyyəti vasitəsilə innovasiyaların dəstəklənməsinə və ixrac imkanlarının genişləndirilməsinə də diqqət yetirəcək. Bununla yanaşı, qurum korporativ idarəetmənin gücləndirilməsi, dövlət müəssisələrində islahatların aparılması və ümumi biznes mühitinin yaxşılaşdırılması üçün dövlət qurumları ilə işləməyə davam edəcək.

AYİB-in ikinci prioriteti Azərbaycana bərpaolunan enerji potensialını açmaqda kömək etmək məqsədi daşıyır. Bununla bağlı bank günəş və külək enerjisi layihələrinin inkişafına, enerji səmərəliliyinin artırılmasına və iqlim dəyişikliyinə davamlılığa dəstək göstərəcək. Bu səylərin əsasını isə ölkənin enerji şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerjinin ixracına imkan yaradılması bu səylərin təşkil edəcək.

Bank növbəti illərdə ölkəmizə Avropa və Asiya arasında yerləşən coğrafi mövqeyindən yararlanmağa da kömək edəcək. AYİB bu zaman xüsusi diqqəti Orta Dəhlizlə əlaqəli layihələrə yönəltməklə dayanıqlı nəqliyyat şəbəkələrinə, rəqəmsal əlaqə və bələdiyyə infrastrukturuna investisiya yatırılmasını nəzərdə tutur.




Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Natali Mouravidze bugünlərdə mətbuata verdiyi açıqlamada qurumun Direktorlar Şurası tərəfindən Azərbaycan üçün növbəti 5 illik investisiya və siyasət təşəbbüslərini rəhbər tutan yeni ölkə strategiyasının təsdiqlənməsindən məmnunluğunu bildirib. O deyib: " Biz Bakı ofisində işimizi daha da gücləndirməyi səbirsizliklə gözləyirik. Növbəti beş il ərzində biz Azərbaycanla innovasiyalar və özəl sektorun gücləndirilməsi ilə idarə olunan şaxələndirilmiş, inklüziv və davamlı iqtisadiyyat qurmaq üçün işləyəcəyik. Azərbaycanın bərpaolunan enerji potensialından istifadə etməklə və onun regional əlaqələrini gücləndirməklə biz ölkə və onun əhalisi üçün uzunmüddətli imkanlar yarada bilərik. Bunun üçün artıq güclü bir təməlimiz var".

Xatırladaq ki, AYİB 1991-ci ildən fəaliyyətə başlayıb. Bank ötən müddətdə, əsasən, keçmiş sosialist ölkələri və Mərkəzi Asiya dövlətlərinə bazar iqtisadiyyatına keçidi dəstəkləmək məqsədilə kredit və texniki yardım üçün kredit, həmçinin ianələr ayırıb. Azərbaycan 1992-ci il sentyabrın 25-də banka üzv seçilib. 2019-cu ildə Böyük Britaniyanın paytaxtı London şəhərində keçirilən AYİB-in Şərq Tərəfdaşlığı İnvestisiya Sammiti çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə bu maliyyə institutu arasında ölkəmizin Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında, eləcə də respublikamızın AYİB-in donorları icmasına qoşulması ilə bağlı sazişlər imzalanıb.

Avropa Yenidənqurma və İnkişaf Bankı 2024-cü ildə Azərbaycanda 8 layihənin icrasına 196 milyon avro investisiya yatırıb. Bu vəsaitin 82 faizi ölkənin "yaşıl" iqtisadiyyatına – enerji və nəqliyyat sektorları, maliyyə institutları, kiçik və orta biznes subyektləri kimi müxtəlif sahələrə yönəldilib. Ümumilikdə isə, bank ötən müddətdə ölkəmizə 194 layihə çərçivəsində 3,962 milyard avro həcmində investisiya yatırıb. Həmin məbləğin 81 faizi (3,212 milyard avro) borcgötürənlər tərəfindən real iqtisadiyyata yönəldilib. Bunun da hesabına ümumi investisiyalarda özəl sektorun payı 26 faizdən 37 faizə yüksəlib.

Hazırda bank bərpaolunan enerji hərraclarının həyata keçirilməsinə dəstək, Gəncə şəhərində küçələrin işıqlandırılması layihəsi üzrə qrant sazişi, Azərbaycan Respublikasının elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Anlaşma Memorandumu, "Gəncə şəhərində küçələrin işıqlandırılması layihəsinin icrasına dəstək" qrant müqaviləsi" və "Gəncə şəhərində bərk məişət tullantıları layihəsinin icrasına dəstək" qrant müqaviləsi" çərçivəsində ölkəmizlə fəal əməkdaşlıq edir.

Qeyd edək ki, AYİB-nin Qafqaz üzrə regional direktoru Alkis Vrienios Drakinos bir müddət bundan əvvəl təmsil etdiyi qurumun "yaşıl" maliyyələşməyə olan öhdəliyini artırdığını və hazırda portfelinin 50 faizindən çox hissəsinin iqlim məqsədlərinə uyğun layihələrlə bağlı olduğunu bildirib. O daha sonra AYİB-in artıq "yaşıl" bank kimi tanındığını və bunun sübut edən bir sıra nailiyyətlərin mövcudluğunu vurğulayıb.

AYİB-in nümayəndəsi bu maliyyə qurumunun hələ bir neçə il əvvəl Paris Sazişi çərçivəsində bankın "yaşıllaşması" ilə bağlı üzərinə öhdəlik götürdüyünü və bu istiqamətdə artıq səyləri artırdığını, 2022 və 2023-cü illərdən etibarən sözügedən sahədə mühüm uğurlar qazandığını da diqqətə çatdırıb.

A.Drakinos qeyd edib ki, AYİB iqlim dəyişikliyi ilə bağlı layihələrə investisiyaları artırmaq məqsədilə digər çoxtərəfli inkişaf bankları ilə əməkdaşlığa başlayıb və bu məqsədlə hər il iqlim layihələrinə 2030-cu ilə qədər 120 milyard avro sərmayə qoymaq öhdəliyi götürüb.

Xatırladaq ki, Azərbaycanın bu bankla əməkdaşlığa başlaması 1992-ci illərə təsadüf edir. Beynəlxalq maliyyə qurumunun ölkəmizdəki nümayəndəliyi isə 1993-cü ildən fəaliyyət göstərir. Bank ilə dövlətimiz arasında əməkdaşlıq 2019–2024-cü illəri əhatə edən ölkə üzrə strategiya sənədi ilə tənzimlənir. Həmin strategiyaya əsasən, AYİB üçün bir sıra prioritet məsələlər var. Bunlar rəqabət qabiliyyətliliyə və yaxşı idarəçiliyə dəstək vasitəsilə iqtisadi şaxələndirmənin təşviqi, maliyyə bazarlarının inkişaf etdirilməsi ilə dözümlülüyün artırılması, "yaşıl" iqtisadiyyata keçidə, eləcə də regional rabitəliliyə dəstəkdir.

AYİB davamlı olaraq "yaşıl" inkişafın, davamlılığın və innovasiyanın təşviqinə sadiqlik nümayiş etdirir. Bu, iqlim dəyişikliyi ilə mübarizədə, özəl maliyyənin səfərbər olunmasında və fəaliyyət göstərdiyi bütün regionlarda sistemli dəyişikliyin gerçəkləşdirilməsində özünü qabarıq büruzə verir. Beynəlxalq maliyyə qurumu biznesinin azı yarısını "yaşıllaşmaya" yönəltməyi qarşıya önəmli vəzifə kimi qoyur. 2023-cü ildə bankın "yaşıl" maliyyələşdirməsinin 6,5 milyard avroya çatması, dünyada iqlimin maliyyələşdirilməsində liderlik səviyyəsinə yüksəlməsi də bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, AYİB-in apardığı tədqiqatlar Azərbaycanda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti ilə Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də yekunlaşıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Maliyyə qurumunun ölkəmizin bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı fəaliyyətindən danışarkən bankın hazırda respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirdiyi daha çox diqqət çəkir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiya istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir. Ölkəmiz tərəfindən AYİB-in fəaliyyətində xüsusi yer tutan "Xəzər–Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihəsi də yüksək dəyərləndirilir.

## Ölkəmiz Aralıq dənizində "Tamar" layihəsində iştirak edəcək

**Azərbaycan Dövlət Neft Şirkəti öz inkişaf strategiyasına uyğun olaraq xarici ölkələrdə hasilat bazasının genişləndirilməsi istiqamətində tədbirləri davam etdirir. Qurum 2025-ci il yanvarın 31-də "Union Energy" şirkəti ilə İsrailin Aralıq dənizi hövzəsində ən iri yataqlarından biri olan və qaz bazarı üçün xüsusi əhəmiyyət daşıyan "Tamar" layihəsində 10 faiz iştirak payının alınması üzrə müqavilə imzalayıb. Bu barədə socar.az saytı məlumat yayıb.**




Bildirilib ki, müqavilənin qüvvəyə minməsi üçün müəyyən şərtlərin yerinə yetirilməsi, o cümlədən müvafiq qaydada tənzimləyici və digər təsdiqlərin alınması tələb olunur. Bununla da, SOCAR Aralıq dənizi hövzəsində apstrim sahəsində investisiya layihələrini həyata keçirməyə başlayır. Şirkət xarici ölkələrdə strateji aktivlərdə iştirak payının alınması istiqamətində bundan sonra da fəaliyyətini davam etdirəcək.

Xatırladaq ki, "Tamar" qaz yatağı 2009-cu ilin yanvarında açılıb. Yataqdan təbii qaz hasilatına isə 2013-cü il mart ayının sonunda başlanılıb. "Tamar" yatağı Hayfa şəhərindən, təxminən, 90 kilometr qərbdə, dəniz səviyyəsindən 5 min metr aşağıda və suyun 1700 metr dərinliyində yerləşir. Yatağın sahəsi 100 kvadratkilometr, layların qalınlığı isə 300 metrə çatır.

"Tamar"da təbii hasilat gündə 1,1 milyard kubfuta qədər təbii qaz istehsalına imkan yaradan 6 istismar quyusu vasitəsilə həyata keçirilir. Yatağın təbii qaz ehtiyatları, təqribən, 389 milyard kubmetr qiymətləndirilir.

## Dünya Bankı "yaşıl" layihəmizi maliyyələşdirəcək



**Azərbaycan və Dünya Bankı arasında "Azərbaycanda Bərpa Olunan Enerji Mənbələri Hesabına Elektrik Enerjisi İstehsalının Genişləndirilməsi Layihəsi" (AZURE) ilə bağlı müzakirələr aparılıb. Bu barədə XQ-yə Energetika Nazirliyi yanında Enerji Məsələlərini Tənzimləmə Agentliyindən məlumat verilib.**

Agentliyin İdarə Heyətinin sədri Samir Axundov energetika üzrə böyük mütəxəssis və tapşırıq qrupunun rəhbəri Rocer Koma Kunilin rəhbərliyi ilə ölkəmizdə səfərdə olan Dünya Bankının nümayəndə heyətini qəbul edib. Görüşdə AZURE-nin iş həcminə edilmiş dəyişikliklər nəzərə alınmaqla onun qiymətləndirilməsi üzrə işlərin həyata keçirilməsi, habelə energetika sektorunun dəstəklənməsinə yönəlmiş texniki yardımın icra gedişatı müzakirə edilib.

Tərəflər tarif siyasəti ətrafında fikir mübadiləsi aparıb, həmçinin Dünya Bankının təklif etdiyi dəstək istiqamətləri və gələcək əməkdaşlığın davam etdirilməsi perspektivləri nəzərdən keçiriblər.

## Zabuxçay su anbarının inşası başa çatdırılıb



**Türkiyənin "Cengiz İnşaat" şirkətinin layihə meneceri Əkrəm Tütüncü mediaya müsaqhibəsində təmsil etdiyi qurumun Laçın rayonundakı Zabuxçay su anbarının tikintisini başa çatdırdığını buldirib.**

Onun sözlərinə görə, bu, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı sahələrinin suya tələbatını ödəmək üçün nəzərdə tutulan əsas su anbarıdır. Menecer qeyd edib ki, Türkiyə şirkətləri müharibənin izlərini silmək və bölgənin Azərbaycanla iqtisadi inteqrasiyanı təmin etmək üçün həyata keçirilən layihələrə öz töhfələrini verir: "Bu çərçivədə "Cengiz İnşaat" Füzulidən Şuşaya iki avtomobil yolunun (biri Zəfər yoludur), eləcə də Zabuxçay su anbarının tikintisini həyata keçirib, ümumilikdə, 3 strateji layihəyə töhfə verib. Azərbaycanda belə layihələr həyata keçirməyə və onun inkişafına töhfə verməyə davam edəcəyik".

Xatırladaq ki, Zabuxçay su anbarının həcmi 27 milyon kubmetrdir. Anbardan çıxacaq magistral suvarma kanalının suburaxma qabiliyyəti saniyədə 6,2 kubmetr təşkil edəcək. Su anbarının tikintisi ilə Qubadlı və Zəngilan rayonlarında 12,1 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək.

## Kəlbəcər, Laçın və Ağdərədə 6 SES qurulur



**"AzərEnerji" ASC-dən verilən məlumata görə, qurum Qarabağın azad edilmiş ərazilərində ümumi gücü 37,5 meqavat olan 6 su elektrik stansiyası da tikir.**

Kəlbəcər rayonunda 7,7 meqavatlıq "Təkəqaya", 3 meqavatlıq "Ağçay", 5 meqavatlıq "Çaykənd", Laçın rayonunda 4 meqavatlıq "Şeylanlı", 3,1 meqavatlıq "Aşağı Malıbəy", Ağdərə rayonunda isə 14,7 meqavat gücündə "Qozlukörpü" su elektrik stansiyaları qurulur. Bu stansiyaların hər biri üçün ayrı-ayrılıqda su qəbuledicilər inşa edilir və stansiyaları su ilə təchiz etmək məqsədilə, ümumilikdə, 40 kilometrlik derivasiya boruları çəkilir.

SES-lərdə, ümumilikdə, il ərzində 110 milyon kilovat-saat "yaşıl" enerji istehsal edilməsi nəzərdə tutulur. Bununla 24 milyon kubmetr qaza qənaət olunacaq, atmosferə atılan 44 min ton karbon qazının qarşısı alınacaq. Stansiyaların 2025-ci ilin birinci yarısında istismara verilməsi planlaşdırılır.

Bundan əlavə, 5 stansiyanın – Kəlbəcər rayonundakı "Aşağı Vəng" və "Nadirxanlı", Laçın rayonunda isə "Mirik", "Ağbulaq" və "Ağbulaq-1" su elektrik stansiyalarının tikintisi də başa çatıb.

## 1 ildə 1132 transformator

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il ölkəmizdə 1132 güc transformatoru (2023-cü ilin eyni dövrü ilə müqayisədə 328 ədəd və ya 40,8 faiz çox) istehsal edilib.**



Məlumata görə, 2023-cü il ərzində respublikada 804 ədəd güc transformatoru istehsal edilmişdi. Ümumilikdə, hesabat ilində Azərbaycanda 251,9 milyon manat dəyərində elektrik avadanlıqları istehsal olunub ki, bu da 2023-cü ildəki göstəricilərlə müqayisədə 36,5 milyon manat və ya 16,9 faiz çoxdur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Heydər Əliyevin gənclər siyasəti və sevgisi



(əvvəli 1-ci səhifədə)

Heç də təsadüfi deyil ki, Heydər Əliyev 2001–2003-cü illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi", "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi haqqında" fərmanlar vermişdir. Ulu öndər demişdir: "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

Dil amili Heydər Əliyev üçün xalqın milli kimliyini təyin edən başlıca amil, dəyər vahidi idi. Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü" memuar-əsərində Heydər Əliyevlə bağlı xalq arasında şifahi yayılmış maraqlı məqamlardan bəhs edir. Bunlardan biri Azərbaycan dili barəsindədir: "Yadımdadır, 70-ci illərin ortalarıydı, Novruz bayramı ərəfəsində böyükdən kiçiyə hamı Şıx çimərliyi səmtində ağac əkməyə çıxmışdı. Yazıçılar İttifaqının ayrıca sahəsi vardı, orda ağac əkirdik. Heydər Əliyev sahələri dolaşıb, adamlarla görüşüb axırda yazıçıların yanına gəldi. Həmişə olduğu kimi səmimiydi, ərki çatanlarla zarafat edir, gənclərlə maraqlanırdı. Şair Qabil yenə özünəməxsus orijinallığı ilə seçildi: "Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız!" Heydər Əliyev astadan gülüb dedi: "Qabil, sən niyə mənim rusca gözəl danışmağıma təəccüb etmirsən, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə seçilməsinin tərəfdarı idi. Onun gənclərə göstərdiyi qayğının alt qatında məhz bu niyyət dayanırdı. Buna görə onların vaxtlarının səmərəli keçirilməsi, uğurlu təşkili, kitab, rəsm, musiqi, sənət mühitində formalaşmaları üçün bütün mümkün imkanları işə salırdı. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabından oxuyuruq: "1990-cı illərin ortaları üçün olduqca çətin durumda olan Azərbaycan Yazıçılar Birliyinə Heydər Əliyev Dövlət himayəsini bərpa etdi. Birliyin əsas nəşrləri – "Ədəbiyyat qəzeti" və "Azərbaycan" jurnalının dövlət hesabına çıxması təmin olundu. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyev və b. XX əsr ədəbiyyatı korifeylərinin yubiley mərasimlərinin də təntənəli surətdə qeyd olunması ədəbiyyata ümumxalq sevgisinin qaytarılmasında böyük rol oynadı. Heydər Əliyevin klassiklərlə yanaşı, müasir yazıçıları da dəyərləndirməsi, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi canlı klassiklərə xəstə ikən baş çəkməsi, qayğı göstərməsi, Məmməd Araz, Mirvarid Dilbazi, Anar, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov və b. yazıçıların yubileylərində iştirakı, Xalq yazıçısı fəxri adı, İstiqlal və Şöhrət ordenləri ilə təltif etməsi də ədəbiyyata diqqətin qayıtmasını nümayiş etdirirdi. Ümummilli liderin 1997-ci ilin oktyabr ayında keçirilən Azərbaycan Yazıçıları Birliyinin X qurultayında şəxsən iştirakı, qurultaydan qabaq Prezident İqamətgahında yazıçıların nümayəndələri ilə, həmçinin ədəbi gəncliklə səmimi görüşləri ədəbi ictimaiyyətdə böyük ruh yüksəkliyi yaratdı".

Səməd Vurğunun ev muzeyindəki görüş zamanı Heydər Əliyev "Fərhad və Şirin" tamaşasını xatırlayarkən gənclik amilinə xüsusi vurğular vururdu: "İndi biz buradakı şəkillərə baxarkən Aybəniz xanım dedi ki, Səməd Vurğunun "Fərhad və Şirin" pyesi 50 il bundan qabaq tamaşaya qoyulmuşdur. Mən onun fikri ilə razıyam ki, indiki gənc nəsildən çoxları "Fərhad və Şirin" pyesinin tamaşasına baxmayıblar və ya bəziləri bu əsəri oxumayıblar... Bu tamaşanı mən vaxtilə çox böyük məmnuniyyətlə gedib Azərbaycan Dövlət Dram Teatrında görmüşəm. Bu əsər mənə çox böyük təsir bağışladı. Onu gedib yenidən görmək mənə də, sizə də lazımdır. Amma gənclərə xüsusən lazımdır..."

Ümummilli lider üçün gənclik cəmiyyətin, ölkənin sabahı demək idi. Gənclərlə görüşündə hər kiçik problemə nüfuz edir, onların qayğıları ilə maraqlanır və həlli istiqamətində mühüm addımlar atırdı. 1997-ci ilin 29 oktyabrında Heydər Əliyevin yaradıcı gənclərlə görüşündəki çıxışından bəzi nüanslara nəzər salmaq yetər ki, Ümummilli liderin içindəki vətən sevgisi, məfkurə ruhu bütün aydınlığı ilə görünsün: "Mən gənclərə üzümü tutub deyirəm, - sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatşünaslar çıxacaqdır. Mən buna heç şübhə etmirəm. Çünki indiyədək yaşadığımız dövr və əldə etdiyimiz nailiyyətlər buna, belə deməyə tam əsas verir. Şərait daha da sərbəst olanda, insan daha da müstəqil, azad olanda: şübhəsiz ki, onun daxilində olan imkanlar daha çox açılır və öz bəhrəsini verir".

O da önəmli faktlardandır ki, Ulu öndərin hər bir məsələyə dair çıxışının mütləq sonluğu, mütləq vurğusu gənclərin xalq, vətən, cəmiyyət qarşısında missiyasını unutmamağa çağırışla bitirdi: "Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu çox vacibdir, çox lazımdır...".

Heydər Əliyev bütün dəyərləri, bütün gözəl ənənələri gənclərə ötürməyi təlqin edirdi: "Ona görə də biz gənclərimizi daha da çox vətənpərvərlik hissiyyatları ilə tərbiyələndirməliyik. Siz gərək ordumuzla yaxın əlaqədə olasınız. Burda kimsə sizi ittiham etdi ki, cəbhəyə getmisiniz, şəhid olmusunuz, ya yox? Şairin şəhid olması lazım deyil. Amma şairin daim ordunun içərisində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, müstəqilliyin nə demək olduğunu anlatması çox vacibdir...".

Heydər Əliyevin bu fikirləri onun əlbəttə ki, çox müdrik siyasi xadim, strateq olmağından irəli gəlir. O, ədəbiyyatı sevirdi, ədəbiyyatın gücünə inanırdı, yaddaş itkisini ərazi itkisindən daha böyük faciə sayırdı. Ona görə bütün çıxışlarında ən uca vurğunu bu məsələlərin üzərinə salır, onları şah mətləbə, ana xəttə çevirirdi: "Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək...".



də hamımız". Bu söz, bu fikir elə oradaca alqışlarla qarşılandı"...

Yüksək mədəniyyət və mənəviyyat daşıyıcısı olan Heydər Əliyev bütün ömür yolunun süzgəcindən keçirdiyi, əməllərində dəfələrlə sübuta yetirdiyi həyat qənaətlərini gənclərlə bölüşürdü. O, gəncləri qoruyur və hamilik edirdi. Elmira Axundova "Şəxsiyyət və zaman" roman-tədqiqatında yazır: "60-cı illərin əvvəllərində Azərbaycan əks-kəşfiyyatı əməkdaşları üçün "başağrısı" olan yeni mənbə – Bakıda yaranan gənclərin gizli təşkilatının üzvlərinin talelərini sındırmamağa və profilaktik tədbirlərlə kifayətlənməyə inandırmaq üçün Heydər Əliyev bəzən bütün natiqlik məharətini işə salmalı olurdu...".

Yazıçıların 1981-ci il qurultayında Heydər Əliyev Anarla açıq polemikaya girərək onun "gənclərin səhv etmək səlahiyyəti" barəsində fikrinə düzəlişlər etmişdir:

"Heydər Əliyev: Amma sən belə dedin ki, əgər o, səhv etməsə, cavan olmaz ki, o, yetişmişdir. Səhv etmək qətiyyən mütləq olmalı şey deyil.

Anar: Şübhəsiz.

Heydər Əliyev: Səhv ola bilər. Ancaq o cavan, o gənc ki, dünyanı əvvəldən düzgün mövqelərdə başa düşür, o ya səhv etmir, ya da az səhv edir. Səhv etmək, şübhəsiz ki, bizim həyatın dialektik qanunudur. Bu aydındır, bunu heç kəs inkar etməməlidir. Amma nə qədər çalışsaq ki, bizim gənclər öz yüksək istedadlarını düz istiqamətdə inkişaf etdirsinlər, o qədər gənclər mətləbə tez çatar. Elədirmi?"

Heydər Əliyev gəncliyin mümkün qədər səhvlərdən arınıb həyat yollarının düzgün

2020-ci il! 44 günlük müharibə! Gənclər ordusunun gücü ilə geri alınmış torpaqlarımız! Yaddaşlı yetişən bir nəslin gücü! Heydər Əliyev siyasətinin gücü! O güc ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də siyasətinin təməlində dayanır! Çağdaş dövrümüzdə gəncliyə açılmış geniş meydan İlham Əliyev dövrünün də mühüm reallıqlarıdır. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaratmışdır.

İndi, 2025-ci ilin bu çağından boylananda – Böyük Zəfərini qazanmış, ərazi bütövlüyünü bərpa etmiş, güclənmiş, artmış, böyümüş dövlətimizin gücündən nəzər salanda Azərbaycana, azərbaycançılıq əqidəsinə sədaqət ruhunu bütün hallarda uca tutan və qoruyan Ulu öndər şəxsiyyətinin nəhəngliyi və uzaqgörənliyi görünür.

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru*

---

**Gəncliyə örnək ömür**

**Hər ulduzun yeri var kəhkəşanlar içində,**
**Hər nəhrdən su vardır göy ümmanlar içində.**

Böyük şairimiz Rəsul Rzanın sözləridir. Bu iki sətirdə göylərdə ulduza, dəryalarda damlaya çevrilməyi bacaran insanların metaforik obrazını yaradan şairin seçilmişləri qəsd etdiyi bəllidir. Seçilmək və nümunə olmaq. Bu, hər bəndəyə nəsib olan qismət deyil.

"...Kəlbəcər işğal olunanda o, qundaqda gələn körpələrdən olub. Bərdənin Qaradəmirçi kəndinə pənah gətirən ailə bir müddət orada yaşayıb, sonra Rusiyanın Volqoqrad vilayətinə köçüb. Hökumə Əliyeva 6-cı sinifə qədər Volqoqradda təhsil alıb, daha sonra ailəsi ilə birliktə Gəncə şəhərinə qayıdıblar. Orta məktəbi bitirib 612 balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olan rında hansısa əməli, hərəkəti məni qane etməyəndə onu qınayır, fərasətsiz olduğunu, bir işə yaramadığını, əldə-ayaqda qalacağını deyirdim. O isə bilirsiniz nə cavab verirdi? Deyirdi ki, mənə gərəkli nə varsa, onu bacaracam. Çoxlu xarici dil öyrənəcəm, alim olacam, mənimlə fəxr edəcəksən. Bir də tez-tez deyirdi ki, ana, mən məşhur adam olacam. Doğrudan da, Hökumə dediklərinin hamısını elədi. Bu gün onunla fəxr edirəm... Amma bir arzusu ürəyində qaldı. Yaxın illərdə ana olmağa qərar vermişdi...".

Dayısı Eyvaz Əliyev: "Hökumənin güclü yaddaşı vardı. Gəncədə orta məktəbdə oxuyarkən bizdə qalırdı. Bizim uşaqlardan fərqli olaraq, o, az oxuyurdu. Ancaq oxuduqlarının hamısını yaddaşında saxlayırdı. Bir dəfə

# Səma, dəniz, torpaq...

## *Arzuları yarımçıq qalmış stüardessa Hökumə Əliyevanın xatirəsinə*



Hökumə təhsilinin magistr və doktorantura pillələrini də adlayıb. 2016-cı ildən hava yollarında əvvəlcə tərcüməçi, az sonra stüardessa kimi fəaliyyət göstərib. Qəzadan bir müddət əvvəl imtahan vermiş, AZAL-da ixtisası üzrə – hüquqşünas kimi işə başlayacaqdı. Təəssüf ki, son uçuşu arzularını yarımçıq qoydu...".

Bunları qəzetimizə danışan, Hökumə Əliyevanın həyat yoldaşı Etibar Əliyev "ömrüm-günüm" deyə müraciət etdiyi xanımının gül-çiçəyi çox sevdiyindən, onun su kimi saf ürəyi, şirin sözləri üçün darıxacağını deyir: "O qədər gözəl xasiyyəti var idi ki, bilmirəm hansını deyim. Hökumə həyatımın mələyi, bələdçisi idi. Münasibətimiz çox səmimi idi, bir-birimizə arxa-dayaq olmuşuq, çətin anlarda dərdimizi bölüşmüşük. O mənim ən yaxın sirdaşım idi. Hökumənin vəfatı ilə həyat gözümdə qaraldı, ömrüm boşluğa yuvarlandı...".

Bu məqamda Etibarın çöhrəsinə baxır və düşünürük ki, üzləşdiyi dərdin ağırlığına tab gətirməyin, belə dik durmağın, qürurla danışmağın özü də qəhrəmanlıqdır. Söhbətinə davam edir: "O xəbəri bacımdan eşitdim. Dedi ki, Hökumənin üzvü olduğu sosial qrupda təyyarənin qəzaya uğradığı yazılıb. Bunu eşidəndə dizlərim qırıldı, bir müddət özümə gələ bilmədim. Sonra hamının baxdığı o müdhiş videoları izlədim. Onun cəsarətini, şücaətini Azərbaycan xalqı, bütün dünya gördü. Xalqımızın başı sağ olsun. Arzu edirəm ki, onun kimi şərəfli ölüm mənim də qismətimə düşsün".

*

Hökumə Əliyevanın 1991-ci il avqustun 8-də Kəlbəcər rayonunun Susuzluq kəndində başlayan və 2024-cü il dekabrın 25-də Qazaxıstanın Manqışlaq vilayətinin Aktau şəhərində bitən ömür yolu cəsarət və vətənpərvərlik örnəyinə çevrildi. Bunu Hökumənin valideynlərinin övladları haqqında söylədikləri qürur dolu sözlərindən duymaq çətin deyildi.

Atası Cəlil Alıyev: "Hökumə uşaq ikən elə bilirdim ki, böyüyəndə xəyalpərəst olacaq. Amma zaman keçdikcə onun ağıllı və hökmlü qıza çevrildiyinin şahidi olduq. Nə deyirdisə, onu dərhal reallaşdırırdı. Özü də heç kəsin köməyinə ehtiyac duymurdu. "Hər işi bacaracam" deyir və icra edirdi. Elə bir hal olmadı ki, Hökumə qərar versin, onu başa çatdırmasın".

Anası Kəmalə Əliyeva: "Uşaqlıq çağla-

mənə dedi ki, oxuduğumu, dinlədiyimi heç vaxt unutmuram, bildiyimi təkrarlamağa ehtiyac duymuram, hərdən bəzisini təkmilləşdirirəm. Hökumə doğrudan fenomen idi".

Təyyarənin göyərtəsində son videogörüntülərdə ölümə "endiyini" duyan sərnişinlərdən biri kəlmeyi-şəhadətini oxuyarkən Hökumə hamıya ürək-dirək verir, "hamı kəmərləri bağlasın", "hər şey yaxşı olacaq" deyirdi. Az sonra təyyarə qəzaya uğrayacaq və bütün dünya bu qəzadan danışacaq.

***

...2024-cü il dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

Prezident İlham Əliyev baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Kşnyakin İqor İvanoviçə (ölümündən sonra), Kalyaninov Aleksandr Georgiyeviçə (ölümündən sonra) və Əliyeva Hökumə Cəlil qızına (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Ekipajın sağ qalan üzvləri Əsədov Zülfiqar Sərdar oğlu və Rəhimli Aydan Vaqif qızı isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunublar.






Yazımıza nöqtəni Hökumə Əliyevanın həmyerlisi, şair Bəhmən Vətənoğludan iqtibasla qoyuruq. Bu bir bənd şeir indi ruhları dağların zirvələrində, ümmanlarda, kəhkəşanda dolaşan bütün şəhidlərimizə ehtiramımız kimi qəbul olunsun:

**Nədən biləcəklər külə dönmüşük,**
**Torpağa çevrilib külə dönmüşük,**
**Çiçəyə dönmüşük, gülə dönmüşük,**
**Dağlarda bitmişik, nə biləcəklər.**

Hökumənin işıq dolu arzuları göyərtəsində olduğu təyyarə kimi səmadan dənizin üstü ilə uçaraq torpağa endi, sonra yenidən göylərə ucaldı. Və onun əziz xatirəsi kimi çiçək arzuları da hamının gördüyü və qürur duyduğu ucalıqda əbədi qərar tutdu...

P.S. Qısametrajlı sənədli film Hökumə Əliyevanın həyatından bəhs edəcək. Çəkilişlərinə yaxın zamanlarda başlanılacağı planlaşdırılan filmin bədii rəhbəri Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayev, ssenari müəllifi və rejissoru Ziya Şıxlinski, operatoru Əməkdar incəsənət xadimi Adil Abbasovdur.

*İ.HƏSƏNQALA*
*XQ*

# Xoşbəxt gələcəyin müjdəçiləri

## Sabahımızın sahibləri

**Ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dönəmində yüksək səviyyəli gənc nəslin yetişdirilməsini ümdə vəzifə sayıb. Dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Unudulmaz dahi şəxsiyyətin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" – İlk forumda Ulu öndər gənclərin qarşısında bu tarixi vəzifəni qoyub.**



Prezident İlham Əliyevin çoxsaylı görüşlərində gənclərə tövsiyələri isə onların çağdaş davranışları üçün fəaliyyət proqramıdır: "Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır".

Fərəhli haldır ki, gənclərimiz etimadı doğruldur, tərəqqi edir və heç bir yad təsirə uymurlar. Elə buna görə də ölkəmizdə Gənclər Günü hamının bayramı sayılır. Təkcə yaşca gənc olanların deyil, ruhən gənc olanların da, gənclərlə işləyib onların tərbiyəsinə məsuliyyət daşıyanların da bu günü qeyd etməyə haqqı çatır. Tarix dəyişsə də, gənclik ruhu davam edir, milli-mənəvi dəyərlər yaşadılır. Məhz vətənpərvər gənclik özünün sanbalı ilə xoşbəxt gələcəyin müjdəçisi olur.

*XQ*

Prezident mükafatçısı

## Prezidentin gənclər təqaüdçüsü



**Xəbər verildiyi kimi, dövlətimizin başçısı 2 gün əvvəl 2025-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında sərəncam imzalayıb.**

Ekspert komissiyasının təklifinə əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 11 nəfər gənc qazanılan uğurlara görə həmin mükafata layiq görülüb.

Fərqlənən gənclərdən biri – Rüstəm Əzimovla həmsöhbət olduq. 1999-cu il mayın 26-da İmişli şəhərində dünyaya göz açıb. Bakıdakı E.Cəlilov adına 272 saylı tam orta məktəbi, sonra isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ABŞ-ın Corciya Dövlət Universiteti ilə birgə həyata keçirdiyi "Biznesin idarə olunmasının təkmilləşdirilməsi" tədris proqramının "Sistem mühəndisliyi" ixtisası üzrə bakalavr ali peşə-ixtisas dərəcəsini bitirib. O, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun elmi işçisidir. Özü barədə bunları söylədi:

– Mən 4 ildən çoxdur ki, burada elmi tədqiqatla məşğulam. Eyni zamanda, elmi tədqiqat nəticələrimdən istifadə edərək magistratura və doktorantura təhsilimi tamamlamışam. "Texnika üzrə fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işimi müdafiə etmişəm. Hazırda dissertasiya işim Ali Attestasiya Komissiyasındadır. Bu illər ərzində həm şəkillər, həm də mətnlər üzərində tanıma, yəni süni intellekt məsələləri ilə məşğul olmuşam. Tələbəlik illərindən etibarən bu sahə üzrə kurslara qatılmışam. Çox sayda onlayn kurslar bitirmişəm. Bunların sırasında Stenford Universitetinin, London İmperial Kollecinin kursları da olub. İnstitutda apardığım araşdırmaların nəticələri isə beynəlxalq jurnallarda çap olunub.

İrəli getməyimə zəmin yaradan İdarəetmə Sistemləri İnstitutuna borcluyam. İnstitutdakılar uzun illərin təcrübəsini çox qısa müddətdə işçilərə aşılamağa çalışırlar. Mən də səy göstərmişəm ki, bu aşılananları mənimsəyim. Burada özümü ailənin bir üzvü kimi hiss edirəm. İnstitutun Gənc Alim və Mütəxəssislər Şurasının sədr müavini kimi çox şadam ki, gördüyüm işlər dəyərləndirilir. Gənclər üçün böyük stimul olan Prezident mükafatını qazanmaq sevindiricidir, bu mükafatda İdarəetmə Sistemləri İnstitutunun bütün əməkdaşlarının uğur payı var. Ötən 4–5 illik müddətdə onlar bütün elmi təcrübələrini, biliklərini mənə və digər gənclərə ötürüblər. Minnətdaram və cavabım daha məhsuldar çalışmaq olacaq.

## İlin gənc alimləri

**Azərbaycanda Gənclər Günü ərəfəsində AMEA Rəyasət Heyətinin iclasında 2024-cü il üzrə AMEA-nın "İlin gənc alimi" mükafatı müsabiqəsinin nəticələri elan olunub.**



Müsabiqənin yekunlarına əsasən, Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elnurə Hüseynova AMEA-nın "İlin gənc alimi" diplomu və pul mükafatına layiq görülüb. XQ-yə açıqlamasında o deyib:

– Çox sevincliyəm. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. Ötən il – yəni 29 yaşıma qədər elmi iş müdafiə etdiyimə, eləcə də "Yaşıl dünya naminə həmrəylik ili"ndə 2 kitabımın çıxdığına görə mükafatlandırılmışam. Müdafiə mövzum "Oğuz qrupu türk dillərində təbiət leksikası" adlanır. Kitablarım isə ekolinqvistika: relyef və iqlim leksikası, həmçinin flora və fauna leksikası barədədir. Hazırda bu sahəyə aid olan 6500 sözdən ibarət lüğət hazırlayıram. Mükafat məni daha böyük uğurlara ruhlandırır.

Qeyd edək ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Telli Əliyeva, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kiçik elmi işçiləri Asim Cənnətov və Şahanə Şahbazova, Arxeologiya və Antropologiya İnstitutunun elmi işçisi, doktorant Günay Bayramova, Fəlsəfə və Sosiologiya İnstitutunun kiçik elmi işçisi, dissertant Nigar İsmayılova, AMEA-nın Naxçıvan Bölməsi Əlyazmalar Fondunun elmi işçisi Kubra Vəliyeva, Şəki və Lənkəran Regional Elmi Mərkəzlərnin elmi işçiləri Ayşən Salmanova ilə Mirməhəmməd Babayev, Gəncə Bölməsinin şöbə müdiri dissertant Simuzər Qafarlı, keçmiş Qafqazşünaslıq İnstitutunun elmi işçisi, dissertant Şərqiyyə İmaməli və Mərkəzi Elmi Kitabxananın baş mütəxəssisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Züriyə Qarayeva da AMEA-nın "İlin gənc alimi" nominasiyası üzrə qalib sayılaraq diplomlarla təltif ediliblər.

## İqtisadçı tələbənin elmi uğurları

### *Amin Zərbaliyev "Dünya iqtisadiyyatı" adlı kitab yazıb*

**Ölkəmizdə parlaq istedadı ilə seçilən, tay-tuşlarının həsəd hədəfi olan gənclər çoxdur. Onlardan biri Amin Zərbaliyevdir.**




Hələ məktəbli ikən Respublika Fənn Müsabiqəsinin mükafatçısı və Coğrafiya üzrə Respublika Fənn Olimpiadalarının gümüş medalçısı olmuş Amin Zərbaliyev 2023-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Türk dünyası iqtisadiyyatı fakültəsinə qəbul olunub. Həmin ildən ali məktəbin Tələbə Gənclər Təşkilatında koordinator və layihə meneceri vəzifəsində çalışıb, müxtəlif layihələrə rəhbərlik edib. Eyni zamanda, 2023-cü ilin sonlarına doğru ASAN Xidmətin könüllü proqramlarını uğurla tamamlayıb. Ötən ilin yazında isə Azərbaycan Respublikası Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində master 2 pilləsini başa vurub. Bundan əlavə, "Baku zoo"da könüllü fəaliyyətini uğurla başa vuran Amin, Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatında təcrübə proqramını da müvəffəqiyyətlə tamamlayıb. Eyni zamanda, YAP tərəfindən təşkil olunan "Biz ümummilli lider Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" adlı illik akademiyanı uğurla bitirib.

AIESEC-in Beynəlxalq Təcrübə Proqramına qatılan Amin ölkəmizi 111 fərqli dünya ölkəsinin təmsilçiləri arasında təmsil edib və bu layihəni də uğurla tamamlayaraq beynəlxalq dərəcəli sertifikat əldə edib. Hazırda həm Statistika Komitəsində çalışır, həm də İqtisad Universiteti Rəqəmsal Könüllülər Təşkilatında sədr müavini kimi fəaliyyət göstərir.

Bütün bunlarla bərabər, Aminin əsas qayğısı, əlbəttə, təhsili ilə bağlıdır. O, "UNEC EKO İDEA" yarışında 1-ci yerə çıxıb.Texno. TV xəbər texnoloji məlumat kanalını yaradan Amin, həmçinin bu il Taylandda keçiriləcək 6-cı beynəlxalq "ICMCER-2025" konfransına dəvət alan yeganə tələbədir. Onun aldığı təltiflər arasında Elm və Təhsil naziri Emin Əmrullayev, AİESEC-in Beynəlxalq Prezidenti Ana Fernandes, UNEC rektoru Ədalət Muradov, doğulduğu Kürdəmir rayonu İcra Hakimiyyəti başçısının imzaladıqları təşəkkürnamələr xüsusi yer tutur.

Amin Zərbaliyev iqtisadiyyat mövzusunda məqalələr də yazır. Bunlar arasında "Azərbaycanın xarici ticarət istiqamətləri", "Yaşıl iqtisadiyyatın sosial və siyasi təsiri", "COP29-un Qafqaz və Azərbaycanda yaratdığı təsirlər" və "İqlim dəyişmələrinə qarşı mübarizədə mühüm platformalar" kimi əhəmiyyətli yazılar yer alır.

Bu ilin yanvarında Amin Zərbaliyevin "Dünya iqtisadiyyatı" adlı kitabı çap olunub. Kitabın elmi redaktoru iqtisad üzrə fəlsəfə doktoru Maqsud Mirzəyev, elmi rəyçisi isə əməkdar müəllim Məhəmmədəli Rasulovdur.

Çalışqan tələbə Amin Zərbaliyevin uğurları onun parlaq gələcəyindən soraq verir. Azərbaycanın yüksək intellektual səviyyəli mütəxəssisi olacağı şübhəsizdir.

## "Kinomexanikin qayıdışı"

**Azərbaycanlı gənc rejissor Orxan Ağazadənin 2024-cü ildə Nantda keçirilmiş beynəlxalq "3 Qitə Festivalı"nın (Festival des 3 Continents) mükafatlarına layiq görülmüş filmi belə adlanır. Bu ekran əsəri ötən həftə Parisin "L'Arlequin" kino zalında nümayiş olunub.**

Xatırladaq ki, noyabr ayında 45 ildən bəri keçirilən festivalın münsiflər heyəti "Kinomexanikin qayıdışı"nı "Nant-Atlantik hava limanı" xüsusi mükafatı və "Gənc münsif" mükafatına layiq görmüş, film ARTE ZDF və CNC tərəfindən dəstəklənmişdi. Nant və Luar–Atlantik şəhərlərindən sonra paytaxt Paris festivalın qalib filmlərini yerli kinosevərlərə təqdim edib.

Bu ekran işi Astara rayonunun Sım kəndində təsadüfən rast gəlinən bir olaydan sonra yaranıb. Qış vaxtı qar yağdığına görə çəkilişə getmiş Orxangil kənddən çıxa bilməyib və Samidin qonağı olublar. Onların kinoçu olduqlarını bilincə, Samid özünün keçmiş kinomexanik olduğunu deyib və 30 ildən bəri evin zirzəmisində saxladığı aparatları göstərib. Deyib ki, yenidən film göstərməyi çox istəyir, amma problem lampanın olmamasıdır. Bu əhvalatdan sonra Orxan xarici dostları ilə layihə hazırlayıb və "Kinomexanikin qayıdışı" araya-ərsəyə gəlib. Almaniya və Fransadan olan kinematoqrafçıların dəstəyi ilə hasilə gələn bədii-sənədli film tezliklə diqqət çəkib, uğurlu festival həyatı yaşayıb. Orxandan başqa, Daniel Quliyev filmin operator işinə görə fərqlənib. Filmin baş qəhrəmanlarından biri isə elə Astara sakini Samid Xəlilovdur.

Xatırladaq ki, "Kinomexanikin qayıdışı" ötən il yayda Cənubi Koreyada keçirilən sənədli film festivalında Qran-Pri qazanıb. Daha öncə isə Almaniyada (Köln şəhəri) operator (təsvir rejissorluğu) işinə görə verilən nüfuzlu "Alman Kamera Mükafatı"nın (Deutscher Kamerapreis) qalibləri sırasında yer alıb.

Lənkəranda anadan olmuş Orxan Ağazadə 2006–2011-ci illərdə Bakı Slavyan Universitetində jurnalistika üzrə bakalavr təhsili aldıqdan sonra, 2015–2018-ci illərdə Böyük Britaniyada "London Film School"da (LFS) magistraturanı bitirib. O, hələ tələbəlik illərində çəkmiş olduğu qısametrajlı sənədli və bədii filmləri ilə nüfuzlu festivallarda iştirak edib. Almaniyanın "Leipzig İnternational Film" Festivalında Orxanın ilk işi olan "Leninə məktub"un premyerası olub.



Gənc rejissor bizimlə söhbətində dedi:

– Əlbəttə, bu uğura çox sevinirəm. Bir də ki, ailə ənənəsinin davamçısı olmağımla fəxr edirəm. Atam – kino və televiziya rejissoru, ssenarist Mirsadiq Ağazadə bu sahənin tanınan təmsilçisidir. Məndən 1 yaş böyük qardaşım Ruslan isə bacarıqlı operatordur. Mən də onların yolu ilə gedirəm. Ölkəmizdə kino sənətinin inkişafına önəm verilməsi ruhlandırıcıdır.

## "Qəbələ – 2025 İdman Paytaxtı" loqosunun qalibi

**Aynurə Qurbanova Bakı Avrasiya Universitetinin "Sosial iş" fakültəsinin 4-cü kurs tələbəsidir. O, həm də peşəkar loqo dizaynı ilə məşğul olur. A.Qurbanova Gənclər və İdman Nazirliyinin təşkil etdiyi loqo müsabiqəsinin də qalibidir.**



Onunla bu barədə söhbət etdik. Bildirdi ki, yaratdığı bu şüar vasitəsilə insan həyatı üçün ən böyük sərvətlərdən biri olan sağlamlığın insanın öz əlində olduğunu göstərmək istəyib:

– Əbəs yerə deyilməyib ki, sağlam bədəndə sağlam ruh olar. Hər kəs sağlamlığına zərər yetirən amillərdən uzaq durmalı və ondan qorunmaq üçün, bir sözlə sağlam yaşamaq üçün müntəzəm olaraq idmanla məşğul olmalıdır. Çünki, idman sağlamlığın əsasıdır. Loqo haqqında isə onu deyə bilərəm ki, burada yaşıl rəngdən istifadə etdim. Bu rəng insanın beynini sakitləşdirir, ruhunu yeniləyir, həyatına yeni nəfəs və təravət bəxş edir. Yaşıl rəng həm də sağlamlığın rəngidir. Yaradıcılığı artıran bu rəng insana güvən, motivasiya bəxş edir. Hesab edirəm ki, idman paytaxtı seçilən Qəbələ üçün bu il yaddaqalan olacaq. Yeni idmançılar yetişəcək, nəticədə Azərbaycan idmanı daha böyük uğurlarla zəngin olacaq.

Qeyd edək ki, yanvarın 26-da Gənclər və İdman Nazirliyi, Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Qəbələ – İdman Paytaxtı 2025"in açılış mərasimi keçirilmişdi. "Qəbələ – 2025 İdman Paytaxtı" loqosunun müəllifi Aynurə Qurbanova birinci yerə layiq görülmüşdü. Qəbələ şəhəri 2023-cü il dekabrın 7-də Gənclər və İdman Nazirliyi Kollegiya iclasında keçirilmiş səsvermə nəticəsində 2025-ci il üçün Azərbaycanın "İdman paytaxtı" seçilib.

## Karlseni məğlub edən 14 yaşlı soydaşımız

**Bu günlərdə 14 yaşlı rusiyalı şahmatçı David Əhmədov sürətli şahmat üzrə həftəlik onlayn turnirdə özündən 20 yaş böyük kumiri – 16-cı dünya çempionu norveçli Maqnus Karlseni məğlub edərək böyük sensasiyaya imza atıb. Rusiyanın, demək olar ki, bütün saytları bu oyunu şərh edib, çoxu da şahmatda supersensasiya adlandırıb.**

Mütəxəssislər də qeyd edirlər ki, "çhess.com" platformasında İsveçrə sistemi üzrə keçirilən, yalnız beynəlxalq titulu olan şahmatçıların iştirak edə bildikləri bu blits turnirdə qrossmeysteri məyus etmək, doğrudan da, bir möcüzədir.

Əhmədov "Title Tuesday" ("Titullu çərşənbə axşamı") turnirinin 2-ci turunda ağlarla oynayıb və 56-cı gedişdə 2831 xalla Beynəlxalq Şahmat Federasiyasının reytinq cədvəlinə liderlik edən, 2013–2023-cü illərdə şahmat tacının sahibi olan, sonra isə titulunu qorumaqdan imtina edən Karlsen üzərində qələbə qazanıb. O, özünün 2368 reytinq xalı ilə FİDE ustasıdır, amma hələlik heç dünyanın ən yaxşı top-100-lüyünə də daxil deyil.

David peşəkar şahmatla 5 yaşından Soçidəki UGİM-də məşğul olmağa başlayıb. Sonra Moskvada Anatoli Karpovun məktəbində və Botvinnik adına UGİM-də məşqlər edib. Müəllimi beynəlxalq qrossmeyster Stanuislav Novikovdur. 2022-ci ildən sürətli şahmat və blits üzrə həm şəxsi, həm də komanda yarışlarında iştirak edir. İnişil yeniyetmələrin dünya birinciliyində 14 yaşadək oğlanlar arasında 4-cü olub. Elə həmin il 15 yaşadək yeniyetmələr arasında klassik şahmat üzrə Rusiya birinciliyində qalib gəlib. Bir neçə ay sonra isə Səmərqənddə blits üzrə dünya çempionatında qüvvəsini sınayaraq orta nəticə göstərib.

Soydaşımız son turnirin qalibi olmasa da, tarix yaza bilib. O deyib: "Çox xoş idi. Bütün partiya boyu gərgin, toparlanmış vəziyyətdə oldum. Analayırdım ki, konsentrasiyanı itirmək olmaz, yoxsa Maqnus cəzalandırar.



Buna görə də o təslim olanda sanki çiynimdən ağır yük götürüldü. Hər halda, söhbət blits üzrə dünya çempionundan gedir. Ondan qoparılan hər bir qələbə böyük uğurdur. Oynamağa davam etmək əzmindəyəm, ümidvaram ki, yaxın vaxtlarda qrossmeyster ola biləcəyəm".

Keçmiş dünya çempionu Anatoli Karpov Davidin qələbəsini belə şərh edib: "Əhmədov üçün bu, böyük nailiyyətdir. 14 yaşında belə bir rəqibi udmaq möhtəşəmdir. Onu təbrik edirəm".

Öz kumiri Karlsen üzərində qələbədən sonra Moskva məktəblisi David dostları ilə futbol oynamağa gedib – triumf gənc şahmatçının coşğun həyat sürməsinə mane olmur.

Qeyd edək ki, yeniyetmə zəka ustası Yessentuki şəhərindəki "Araz" Azərbaycan İcmasının başçısı Fərhad Əhmədovun nəvəsidir. Atası Ruslan Əhmədov Davidin hələ balaca ikən şahmata həvəs göstərdiyini görüb və bu zəka oyununu öyrənməsinə şərait yaradıb.

***Səhifəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Yanaşma “ağrısı”

## İrəvan Zəngəzur dəhlizinin özü üçün də strateji əhəmiyyət daşıdığını anlamır



**Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan və Ermənistan arasında sülhə nail olmağa, diplomatik münasibətlərin bərpasına ən ciddi əngəllərdən biri Zəngəzur dəhlizi ilə bağlı məsələdir. Öz iradəsindən kənar ayrı düşdüyü tarixi torpaqlarına qayıdış Azərbaycan xalqının halal haqqıdır. Qərbi Zəngəzurun Qərbi Azərbaycan olduğuna artıq hayların özləri də əmin olmağa başlayıblar. Doğrudur, bu məsələ imzalanacaq sülh sazişində müzakirə predmeti deyil, amma dövlətimiz və xalqımız üçün sülh müqaviləsinin imzalanması qədər əhəmiyyətlidir. Çünki burada söhbət həm də tarixi ədalətin bərpasından gedir. İrəvan hələlik buna inadlı müqavimət göstərməkdə davam edir. Ermənistan hakimiyyəti qərbli havadarlarına güvənərək bu direnişi daha da gücləndirməyə, “qonşudan təcavüz” feykini qabartmağa çalışır. Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan bu yaxınlarda jurnalistlərə açıqlamasında bəyan etdi ki, heç bir Zəngəzur dəhlizi olmayacaq: “Biz artıq dəfələrlə təkrar etmişik ki, bu, olmayacaq”.**

Əslində, Qriqoryanın bu bəyanatı Paşinyan hökumətinin Bakı ilə sülh anlaşmasına dair səsləndirdiyi “nikbin” tezislərin söz oyunundan, demaqogiyadan savayı bir şey olmadığını göstərir. Həm də o deməkdir ki, 4 il 3 ay bundan əvvəl kapitulyasiya aktnı imzalayan ölkə düşdüyü dalandan çıxmaq barədə düşünmək istəmir. Bunu özü bilər. Fəqət Zəngəzur dəhlizi gec, ya tez, mütləq açılacaq. Bunun sadə bir səbəbi odur ki, bu məsələdə Ermənistan söz sahibi deyil. Bakı və Ankaranın mövqeyi isə dəyişməz olaraq qalır: Zəngəzur dəhlizi region ölkələrinin maraqlarına cavab verən Avrasiyanın orta xəttindəki önəmli layihələrdən biridir. Bu layihənin beynəlxalq əhəmiyyətini nəzərə alaraq, onu da qeyd etmək lazımdır ki, Avropa İttifaqı adlı “kollektiv Qərb” Cənubi Qafqazda sabitliyin və əmin-amanlığın hökm sürməsində qətiyyən maraqlı deyil. Eləcə də region dövlətlərinin inkişafı Qərbin maraq dairəsi ilə üst-üstə düşmür. O cümlədən İrəvanın bölgədə sülhün, əmin-amanlığın dəstəklənməsinə yönəlik bəyanatları, sadəcə, siyasi manipulyasiyadır. Bundan məqsəd haypərəst Qərbin bu coğrafiyada məkrli geopolitik oyunlarını ört-basdır etməkdir.

* * *

“Türkiyə və Azərbaycan üçün Meğri və ya Zəngəzur dəhlizi bugünün və gələcək illərin əsas strateji hədəflərindən biridir”. Bu sözləri erməni politoloq Varujan Geqamyan deyib. O bildirib ki, dəhliz reallaşarsa, Türkiyə–Azərbaycan cütlüyü 3 böyük problemi həll edəcək: Birincisi, Türkiyə ilə Azərbaycan arasında tam ortaq quru sərhədi, nəhayət, formalaşacaq və Türkiyə Cənubi Qafqazda əsas güc olacaq. İkincisi, Türkiyə türk dünyası ilə birləşəcək və regional supergücə çevriləcək. (Geqamyan bunu “neopantürkizm” adlandırır – red.). Üçüncüsü, bu layihə Ermənistanın cənubunu kəsəcək və faktiki olaraq ölkəmizin ərazisini anklava çevirəcək, bizi Türkiyədən tamamilə asılı vəziyyətə salacaq.

Onun sözlərinə görə, dəhliz layihəsinin əsas benefisiarı Türkiyədir. Nifrətdən yoğrulmuş hay təfəkkürünün məhsulu olan bu düşüncəsi ilə İrəvan heç vaxt irəli gedə bilməyəcək. Transmilli əhəmiyyət kəsb edən, Ermənistanın özü üçün də faydalı olacaq Zəngəzur dəhlizinin yalnız qonşuların mənafeyinə xidmət edəcəyini irəli sürmək və bundan qorxuya düşmək məhz xoflu hay xislətinin bəhrəsidir. “Türkiyə Azərbaycanla sülh müqaviləsi imzalanmayana qədər Ermənistanla münasibətlərin normallaşması istiqamətində praktiki addımlar atmayacaq”. Bunu isə 6 ay bundan əvvəl erməni türkoloq Ruben Safrastyan deyib. Zəngəzur dəhlizinin açılması məsələsində məsləkdaşı Geqamyanla fikirləri üst-üstə düşən Safrastyan iddia edir ki, sülh müqaviləsi imzalandıqdan sonra da münasibətlər tam nizamlanmayacaq: “Düşünürəm ki, bundan sonra Ankaranın əsas hədəfi Zəngəzur dəhlizinin açılması olacaq. Beləliklə, Ermənistana ikinci təzyiq dalğası başlayacaq”. Safrastyanın sözlərinə görə, Ankara Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasında maraqlıdır: “Türkiyə gözləyəcək ki, Azərbaycan müqaviləni imzalasın. Bəs onun bu sənədə niyə ehtiyacı var? Düşünürəm ki, bu, Ankaraya regionda İkinci Qarabağ müharibəsindən sonrakı



yeni geosiyasi situasiyanın nəticələrini rəsmiləşdirmək baxımından lazımdır. Yeni geosiyasi situasiya isə bölgədə Rusiyanın təsirinin azalması, Türkiyənin təsirinin güclənməsidir”.

Yəni, Safrastyan da məsləkdaşı Geqamyan kimi Türkiyənin regional supergücə çevrilməsini Ermənistan üçün “təhlükəli perspektiv” sayır. Rəsmi İrəvan, bir qayda olaraq, sülhə əngəl yaratmağa yönəlik bu cür feyk-ehtimallarını hay politoloqların dili ilə bəyan edir. Paşinyan hökumətinin bu məsələyə yanaşmada problem yaşadığı göz qabağındadır. Ermənistanın xarici işlər naziri Türkiyəli həmkarı Hakan Fidanla son görüşündə Zəngəzur dəhlizinin açılmasının onların maraqlarına da cavab verdiyini birdirməsinin ardından daxili auditoriyaya fərqli tezislərin ötürülməsi İrəvanın yenə “sülhdənqaçma nömrələrinə” baş vurması anlamına gəlir. Bu zaman onlar bu transmilli layihənin strateji əhəmiyyətini, ilk növbədə, özlərinə fayda gətirəcəyini ya anlamaq istəmir, ya da vaxtı uzatmaq məqsədilə manipulyasiya ilə məşğul olur. Əslində, İrəvanın istər sülh sazişinin mətni, istərsə də 2020-ci il 10 noyabr Bəyanatında öz əksini tapmış Zəngəzur dəhlizinin açılması, eləcə də Bakının sülhə və əməkdaşlığa çağırışlarına ikibaşlı, məkrli, bir növ, “ağrılı” yanaşmasının birinci dəfə deyil şahidi oluruq.

* * *

**Mövzu ilə bağlı XQ-yə açıqlamasında məhz yanaşma amilini önə çəkən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** hesab edir ki,



hay politoloqlar məsələnin nə coğrafi, nə də geosiyasi xarakterini anlayırlar: “Yəni, sözlərindən belə çıxır ki, Zəngəzur dəhlizinin açılması ilə Ermənistanın vəziyyəti yaxşılaşmayacaq. Məgər ermənilər bu dəhlizdən istifadə etməyəcək? Hazırda, faktiki olaraq, blokada şəraitində yaşayan Ermənistan digər regionlara, dünyaya çıxış yolunu yanlış məkanlarda axtarmaqdadır. Bu da maraqlı suallar yaradır. Əslində, onların Azərbaycan və Türkiyənin maraqları ilə bağlı gurultulu bəyanatları reallıqdan uzaq tezis və ifadələrdən ibarətdir. İrəvan bir yandan Türkiyə ilə sərhədlərin açılmasına, diplomatik əlaqələrin bərpa olunmasına can atır. Vəziyyət o həddə çatıb ki, hayların baş naziri çıxışında “erməni soyqırımı” məsələsinin 1939-cu ilədək səslənməməsinin səbəbləri barədə danışmağa başlayıb. Paşinyan bu məsələdə Türkiyəni günahlandırmağın yanlış olduğunu dedi. Bu, Ermənistan baş naziri tərəfindən edilən böyük etirafdır. Rəsmi İrəvan çox yaxşı başa düşür ki, bölgə ölkələri, eləcə də xariclə əlaqələrini bərpa etmək üçün dəhlizlərə, yollara ciddi ehtiyac var. Başqa cür bu imkanı əldə edə bilməyəcəklər. Əsas məsələ bundan ibarətdir. Düşünürəm ki, Zəngəzur dəhlizi layihəsinə belə yanaşma İrəvanın politoloqların vasitəsilə kimlərinsə gözündən pərdə asmaq cəhdindən başqa bir şey deyil. Sadəcə olaraq, onlar bu məsələyə gözlərini yaxşı-yaxşı ovuşdurub açandan sonra diqqətlə baxmalıdırlar. Bu zaman reallığı görməli və onu olduğu kimi qəbul etməlidirlər”.

* * *

2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı hələlik Azərbaycanın maraqları baxımından öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Ermənistanın Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən boyun qaçırması yalnız öz iradəsindən asılı deyil. Bu layihənin gerçəkləşməsi, dəhlizin Rusiyanın, yaxud Türkiyənin nəzarətinə keçməsi “kollektiv Qərb”in bölgədəki maraqlarına cavab vermir. Ona görə rəsmi Bakı bütün bu məsələlərin Qərblə Rusiya arasındakı rəqabət çərçivəsində həll edilməsi prosesinə qarışmaq fikrində deyil. Azərbaycana, sadəcə, Naxçıvana maneəsiz gediş-gəliş dəhlizi lazımdır, vəssalam.

Mövcud duruma kənardan müşahidələr həm də onu deməyə əsas verir ki, haypərəst Qərb, Fransa başda olmaqla anti-Azərbaycan “çete”si özlərinin “strateji planları” üçün Azərbaycanı Rusiya ilə qarşıdurmaya sövq etməyə çalışır. Amma rəsmi Bakı milli maraqlarını Qərbə güzəştə getmək niyyətində deyil və buna müqavimət göstərmək üçün güclü siyasi iradəyə malikdir. Ümumiyyətlə, Bakı hesab edir ki, Cənubi Qafqaz üzərindən geosiyasi, geostrateji və geoiqtisadi planlarını gerçəkləşdirməyə çalışanlar Azərbaycanın maraqlarını mütləq nəzərə almağa məcburdurlar. Əks-təqdirdə həmin planların müəlliflərinin kimliyinə əhəmiyyət vermədən, onları bloklamaqdan qətiyyən çəkinməyəcək. Bu zaman Ermənistanın suveren hüququnun tapdanmasından və ya bu hüquqdan imtinadan söhbət gedə bilməz. Zəngəzur dəhlizi öz potensialı ilə, əslində, təkcə Azərbaycanın və Türkiyənin maraqlarına deyil, bölgənin bütün ölkələrinin maraqlarına cavab verəcək. Ermənistan isə bu dəhliz vasitəsilə birincisi, Azərbaycan dəmir yollarına çıxış əldə edərək, onun İran və Rusiya ilə dəmir yolu əlaqələri bərpa olunacaq. İkincisi isə bu dəhliz vasitəsi ilə beynəlxaq yükdaşımalara görə əlavə dividendlər qazanacaq. Axı Zəngəzur dəhlizi təkcə Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birləşdirən yol deyil, həm də Çin və Mərkəzi Asiya ölkələrini Avropanın tranzit-nəqliyyat qovşağına bağlayan körpü rolunu oynayacaq.

İndi İrəvan isteblişmenti Zəngəzur dəhlizi ilə bağlı içində yaratdığı süni xofdan xilas olmalı, bu əməkdaşlıq körpüsündən keçmək üçün siyasi iradə və cəsarət göstərməlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

---

**2 Fevral Gənclər Günüdür**

# “Nur şəhəri”ndə gənclik ab-havası



**Mingəçevir Şəhər İcra Hakimiyyətində Gənclər Günü münasibəti ilə gənclərlə görüş bayram əhval-ruhiyyəsində keçdi.**

Görüşdə Mingəçevir Dövlət Universitetini, Tibb və Turizm kolleclərini, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrini, digər qurumları təmsil edən gənclər, ictimaiyyət və mətbuat nümayəndələri iştirak edirdilər. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov gəncləri təbrik edərək xoş arzularını çatdırıb. Müstəqil Azərbaycanda uğurlu gənclər siyasətinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulduğunu bildirən şəhər rəhbəri 1994-cü il 26 iyul tarixli fərmanla Gənclər və İdman Nazirliyinin yaradılmasının gənclərə göstərilən diqqət və qayğı olduğunu vurğulayıb. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumu, 2 fevral 1997-ci il tarixində imzalanmış sərəncama əsasən, həmin günün Azərbaycan Gəncləri Günü elan edilməsi, 1999-cu il 29 iyul tarixli “Dövlət gənclər siyasəti haqqında” fərmanla bu siyasətin həyata keçirilməsi üzrə tədbirlər planının təsdiq edilməsi, 2002-ci il 9 aprel tarixində “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi gənclərin inkişafına, təhsilinə, fiziki sağlamlığına geniş yollar açdı. Natiq deyib ki, ardıcıllıqla həyata keçirilən gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edərkən ölkəmizdə vətənpərvər bir nəslin formalaşmasını məmnunluq hissi ilə təsdiqləyə bilərik.

Qeyd olunub ki, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin dövründə Azərbaycan gəncləri sərhədlərimizin qorunmasında, ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə böyük fədakarlıqlar göstəriblər. Dövlətimizin başçısı gənclərimizin Vətən sevgisini qürur hissi ilə belə nəzərə çatdırıb: “Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur”.

Gənclərin dünyanın müxtəlif ölkələrindəki universitetlərdə təhsil almasının, dünya və Avropa idman yarışlarında qələbələr qazanaraq Azərbaycan bayrağını yüksəklərdə dalğalandırmasının bu uğurlu siyasətin davamı olduğu vurğulanıb. “Respublikamızda 45-dən çox Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi və bu kimi digər nailiyyətlər hər birimizin fərəhini artırır”.

Sonra Mingəçevirdə uşaq və gənclərin təhsili, sağlamlığı üçün layihələrin icra edildiyini bildirən İlham İsmayılov qeyd edib ki, “Nur şəhəri”ndə aparılan abadlıq-quruculuq işləri çərçivəsində məhəllələrdə və istirahət məskənlərində, xiyabanlarda futbol və basketbol idman meydançaları, müxtəlif idman aksesuarları ilə təchiz edilmiş meydanlar hazırlanır. Bütün bunlar insanların, xüsusilə də gənclərin səmərəli və mənalı istirahətlərinin təşkili, onların məmnunluq hisslərinin artırılması üçün görülən işlərin bir hissəsidir.

Görüşdə YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, İşıqlı Gələcək Gənclər İctimai Birliyinin sədri Samrin Xanlayev gənclərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə, şəhərdə gənclər üçün yaradılan şəraitə görə yerli rəhbərliyə minnətdarlıqlarını ifadə ediblər. Məktəbli gənclərdən Hüseyn Əbdürəhimli, Əlmurad Hacızadə, Zəhra Allahverdi təhsil və idman sahəsində qazandıqları uğurlardan söhbət açaraq onlara yaradılan şərait üçün təşəkkürlərini bildiriblər.

Sonda şəhərin ictimai həyatında fəallıq göstərən, təhsil, idman sahəsində nailiyyətlərinə görə fərqlənən bir qrup gəncə Mingəçevir Şəhər İcra Hakimiyyətinin fəxri fərman və hədiyyələri təqdim edilib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Mingəçevir**

---

# Daşkənddə Azərbaycan soraqlı şənlik



**2 Fevral Gənclər Günü münasibətilə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə konsert keçirilib.**

Şənlikdə Azərbaycanın Özbəkistandakı səfirliyinin əməkdaşları, ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, ictimaiyyətin nümayəndələri, tələbələr iştirak ediblər.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev əsası 1997-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan Gənclər Günü haqqında məlumat verib, həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin dövlətin böyük diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Səfir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin nailiyyətləri, qazanılan uğurlar haqqında söhbət açıb, dövlət başçısının gənclərə qayğısından danışıb, son illərdə onların müxtəlif vəzifələrə irəli çəkildiyini vurğulayıb. Hüseyn Quliyev cəmiyyətimizin aparıcı qüvvəsi olan gənc nəslin yüksək səviyyədə, milli dəyərlərə uyğun yetişdirilməsinin dövlətimiz üçün vacib məsələlərdən olduğunu vurğulayıb.

Özbəkistan Dövlət Xoreoqrafiya Akademiyasının rektoru Şuxrat Toxtasimov son illərdə iki qardaş xalqın mədəniyyət sahəsində əlaqələrinin inkişafından danışıb, Bakı Xoreoqrafiya Akademiyası ilə əməkdaşlığın yaradılması və birgə layihələr haqqında məlumat verib, bu sahədə kitabların çapı ilə bağlı təşəbbüslərdən söz açıb.

Yunus Rəcəbi adına Özbəkistan Musiqi Sənəti İnstitutunun rektoru Eldor Şermanov Azərbaycanın gənclər siyasətinin təqdirəlayiq və uğurlu olduğunu, Özbəkistanda da bu istiqamətdə dövlət tərəfindən mühüm işlərin həyata keçirildiyini qeyd edib. O, 2024-cü ilin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sərəncamı ilə ölkədə Gənclərə və biznesə dəstək ili elan olunduğunu diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdindəki “Azərbaycan” rəqs ansamblının və "Navbahor" Özbəkistan Dövlət rəqs ansamblının üzvləri, həmçinin Bakı Xoreoqrafiya Akademiyasının tələbəsi Aslanə Əliyeva xalqımızın milli rəqslərini, özbək müğənnisi Dilnoza Əkbərova, azərbaycanlı ifaçılar Vahid Əliyev və Fatimə İsgəndərova Azərbaycan və özbək mahnılarını ifa ediblər. Onların ifaları alqışlarla qarşılanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Daşkənd**

# Yenidən silahlanma yarışı

## *NATO ölkələri müdafiə xərclərini artırırlar*

**Ukrayna ətrafında vəziyyət təkcə Rusiya ilə NATO arasında deyil, həm də alyansla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) arasında qarşıdurma münasibətlərini intensivləşdirir. Moskva və Minsk 2025-ci ilin sentyabrında "Zapad-2025" strateji hərbi təlimləri keçirəcək. Eyni zamanda, KTMT-nin Birləşmiş Qərargah rəisi Andrey Serdyukov bildirib ki, NATO öz qoşunlarını KTMT sərhədlərinə yenidən toplayacaq.**



KTMT-nin Birləşmiş Qərargahının məlumatına görə, bu təşkilatın 2025-ci ildə əsas hərbi manevrləri qərb istiqamətində cəmləşəcək. Yanvarın 30-da Serdyukov bəyan edib ki, sentyabrda Belarus Kollektiv Çevik Reaksiya Qüvvələri (KTMT qoşunlarının bir hissəsi-red.) ilə birgə "Qarşılıqlı fəaliyyət-2025" təlimi keçirməyi planlaşdırır. Eyni zamanda, Serdyukov qeyd edib ki, bu manevrlərin konsepsiyasının Belarus və Rusiya silahlı qüvvələrinin "Qərb-2025" birgə strateji təliminin məqsədləri ilə sıx əlaqələndirilməsi planlaşdırılır. Onun fikrincə, "Belarus və Rusiya sərhədlərinin bilavasitə yaxınlığında NATO koalisiyasının və milli qoşunlarının əhəmiyyətli mövcudluğu qalır. Onların hərbi fəallığı, birgə təlimlərinin intensivliyi və miqyası artır". KTMT bu cür hərbi təhdidlərə adekvat cavab verməlidir.



Bununla belə, görünür, vəziyyət tezliklə daha da gərginləşəcək. Cümə axşamı Helsinkidə keçirilən sammitdə Şimali Avropa ölkələrinin müdafiə nazirliklərinin rəhbərləri anti-Rusiya tonunda çıxış ediblər. Dəfələrlə Rusiyanı ölkəsinin əsas düşməni adlandıran Finlandiyanın müdafiə naziri Antti Hakkanen deyib: "Biz Şimal regionunda müdafiə qabiliyyətini və təhlükəsizliyi təmin edəcəyik, NATO və Aİ-ni gücləndirmək üçün əməkdaşlığımızı dərinləşdirəcəyik və Ukraynaya dəstəyi davam etdirməyi birgə planlaşdıracağıq".

KİV-in məlumatına görə, NATO-nun baş katibi Mark Rutte ötən çərşənbə günü Pentaqon rəhbəri Pit Heqsetlə telefon danışığından sonra müdafiə xərclərini artırmaq üçün ABŞ ilə əməkdaşlığa hazır olduğunu bildirib. Rutte sosial mediada "Pit Heqsetlə gözəl ilk söhbət" sözlərini yazaraq əlavə edib ki, "Güclü bir ittifaq üçün müdafiə xərclərini və müdafiə istehsalını daha da artırmaq üçün sizinlə işləməyi səbirsizliklə gözləyirəm". NATO rəhbəri daha əvvəl bildirmişdi ki, NATO Rusiyanın qarşısını almaq üçün bu cür addımlar atır.

ABŞ dövlət katibi Mark Rubio da ötən gün Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaja Kallas ilə telefon danışığında Aİ və NATO-nun Rusiyaya qarşı hərəkətlərini dəstəklədiyini açıqlayıb. O, Aİ-nin Moskvaya ən güclü təzyiq göstərmək öhdəliyi ilə razılaşıb. Eyni zamanda, ABŞ Dövlət Departamenti Marko Rubionun Aİ-nin Rusiyaya qarşı sanksiyaları uzatmaq qərarını alqışladığını bildirib. Media "transatlantik təhlükəsizliyin gücləndirilməsinin zəruriliyini vurğulayan və Avropanı müdafiə xərclərini artırmağa çağıran" Rubionun sözlərinə istinad edib. Bundan başqa, media "transatlantik təhlükəsizliyin gücləndirilməsinin vacibliyini vurğulayan, Avropanı müdafiə xərclərini artırmağa çağıran" Rubionun sözlərinə istinad edir.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp alyans tərəfdaşlarının ümumi daxili məhsulun (ÜDM) ən azı 5 faizini müdafiəyə sərf etmələrini təmin etməyə çalışacağını bildirmişdi. Hazırda onlar ÜDM-in orta hesabla, təxminən, 2 faizini bu məqsədlərə xərcləyirlər. Bu faktı alyansın baş katibi Mark Rutte də təsdiqləyib.

Bu yaxınlarda "Financial Times" qəzeti öz mənbələrinə istinadən xəbər verib ki, "Avropalı NATO üzvləri alyansın 24-26 iyun 2025-ci il tarixlərində Haaqada keçiriləcək növbəti sammitində ölkələrin ÜDM-in 3 faizinə qədər xərcləməsi barədə razılığa gələ bilmələri barədə danışıqlar aparırlar". Amma "qoca qitə"nin sakinləri bu səviyyədən artıq pul xərcləmək istəmirlər. Alyansın bir çox ölkəsi hesab edir ki, müdafiə xərclərinin artırılması prosesi tədricən olmalıdır. Avropada üstüörtülü belə bir etiraf var ki, alyansın avropalı üzvləri ləng hərbi-sənaye komplekslərini canlandırmaq və potensial Rusiya təhlükəsinə qarşı çıxmaq üçün daha çox pul xərcləməlidirlər. Bir sıra analitiklər də bildiriblər ki, hazırkı iqtisadi şəraitdə hərbi xərclərin ÜDM-in 5 faizinə qədər artırılması hətta nisbətən varlı NATO ölkələri üçün də qeyri-mümkündür.

NATO məlumatlarına görə, onun üzvlərindən heç biri hazırda ÜDM-nin 5 faizini müdafiəyə xərcləmir. Ən çox pul xərcləyən Polşa (4,12 faiz), Estoniya (3,43 faiz) və ABŞ-dır (3,38 faiz). Ötən il Alyansın hərbi cəhətdən ən güclü üzvlərindən biri olan İngiltərə də 3 faizi aşa bilməyib. London 2024-cü il ÜDM-in 2,33 faizini müdafiəyə xərcləsə də və əvvəlki illərdə ardıcıl olaraq 2 faizlik həddi keçsə də, hələ də 2,5 faizlik hədəfinə çatmayıb. Bu rəqəmi 5 faizə çatdırmaq xüsusilə çətindir, çünki Britaniya hökuməti seçicilərə həkimlərin qəbulu üçün daha qısa gözləmə müddətləri və daha çox mənzil də daxil olmaqla bahalı sosial proqramlar vəd edib.

Hazırda Fransa və Almaniya iqtisadi problemlər üzündən siyasi təlatümlərlə üzləşib, hər iki ölkədə Rusiyaya dost ifrat sağçı qüvvələr güclənməkdədir. Paris 2024-cü ildə ÜDM-in 2,06 faizini müdafiəyə xərclədiyi halda, son bir ildə üç baş nazirin dəyişdiyi Fransada mövcud siyasi qeyri-sabitlik onun hərbi xərcləri artırmaq planlarını alt-üst edir. Amma istənilən halda NATO ölkələrinin müdafiəyə ümumi pul xərcləri Rusiya və bütün KTMT ölkələrinin ümumi xərclərini üstələyir. Yaxın perspektivdə bu fərqin daha da artacağı proqnozlaşdırılır. Rusiyanın və KTMT-ə üzv ölkələrin NATO ilə bu məsələdə mübarizə aparmaq imkanları çox məhduddur.

***S.ELAY***
***XQ***

**ABŞ-ın "UG Solutions" mühafizə xidməti atəşkəs dövründə Qəzza zolağında sərhəd-buraxılış məntəqəsinə nəzarət edəcək. Bununla bağlı şirkət ABŞ Xüsusi Təyinatlı Qüvvələrinin 100 veteranını işə götürməyi planlaşdırır. Məlumatda həmçinin bildirilir ki, onların hər birinə gündə 1100 dollar əmək haqqı və 10 min dollar avans veriləcək. Bu barədə "trtrussian.com" saytı məlumat verib. Mənbəyin bildirdiyinə görə, bundan əvvəl də "UG Solutions" şirkəti müqaviləli veteranları Qəzza zolağında yerləşən nəzarət buraxılış məntəqəsinə göndərmişdi. Onlar 2023-cü ildə Qəzzanın "Netzarim" dəhlizində yerləşdirilmişdilər.**

# Qəzzanın qəzalı aqibəti

Keçmiş İsrail kəşfiyyatçısı Avi Melamed "Reuters" agentliyinə deyib: "Əlbəttə ki, onlar təhdidlərlə üzləşəcəklər". Axı, HƏMAS İsrailin Qəzza zolağında həyata keçirdiyi hərbi əməliyyatlara verdiyi dəstəyə görə ABŞ-dan qəzəblidir.

Müqaviləli əsgərlər M4 tüfəngləri və "Glock" tapançaları ilə silahlanacaqlar. "Bizim özümüzü müdafiə etmək hüququmuz var", – deyən şirkət sözçüsü silahdan istifadə qaydalarını açıqlamaqdan imtina edib.

Ekspertlər Qəzza ilə İraq arasında təhlükəli paralellərə diqqət çəkirlər. Onların sözlərinə görə, 2007-ci ildə özəl hərbi "Blackwater" şirkəti İraqda müqaviləli əsgərlər yerləşdirmişdi. Onlar Bağdadda 14 mülki vətəndaşı qətlə yetirməklə diplomatik böhrana səbəb olmuşdular. 2004-cü ildə isə üsyançılar Fəllucədə "Blackwater"dən olan 4 amerikalını öldürdülər və 2 cəsədi körpüdən asdılar. Bu da ABŞ-ın qisas əməliyyatı həyata keçirməsinə səbəb oldu. Ekspertlər belə bir vəziyyətin Qəzza zolağında da təkrarlanacağından ehtiyat edirlər. Onlara görə, bu, İsrailə hərbi əməliyyatların yenidən başlamasına bəhanə verə bilər.

Hesab olunur ki, İsrail hökuməti müqaviləli əsgərlərin Qəzzada yerləşdirilməsində maraqlıdır. Xarici işlər nazirinin müavini Şarren Haskel təsdiq edib ki, İsrail Qəzzaya təhlükəsizlik və humanitar yardımların çatdırılması üçün atəşkəs razılaşmasına "Misir təhlükəsizlik şirkəti" ilə birlikdə işləyəcək özəl mühafizə şirkətinin daxil edilməsini tələb edib. Məlumatda o da qeyd olunub ki, amerikalı müqaviləli əsgərlər keçid məntəqəsində sakinlərdən nisbətən aralı məsafədə yerləşdiriləcək və yerli sakinlərlə heç bir əlaqələri olmayacaq. Onların əsas vəzifəsinə nəqliyyat vasitələrini yoxlamaq da daxildir.

ABŞ ilə yanaşı Avropa İttifaqı (Aİ) da Qəzzada fəaliyyətini genişləndirir. Bu arada İsrail ordusu Qəzza ilə Misir arasındakı "Rəfah" sərhəd keçid məntəqəsini Aİ-nin beynəlxalq missiyasının nəzarətinə təhvil verərək geri çəkilib. Bu qərar yanvarın 19-dan qüvvəyə minmiş atəşkəs rejiminin şərtlərinə uyğundur.

İsrail Ordusu Radiosunun məlumatına görə, sərhəd keçid məntəqəsini tərk edən hərbçilər yenidən Misirlə sərhəddə yerləşdirilib. Hər gün 50 yaralı fələstinliyə, eləcə də hər bir yaralını müşayiət edən daha 3 nəfərə, ümumilikdə, gündə 200 nəfərə sərhədi keçməyə icazə veriləcək.

Aİ diplomatiyasının rəhbəri Kaja Kallasın sözlərinə görə, qurum keçidi izləmək üçün yanvarın 31-də rəsmi olaraq öz missiyasını açıb. Fələstin Səhiyyə Nazirliyinin məlumatına görə, ilk yaralı qrupların təxliyəsinə başlanılıb. Beləliklə, Fələstin anklavından ilk qrup dünən "Rəfah" sərhəd-keçid məntəqəsindən keçib.

Qeyd edək ki, İsrail əsgərləri 2024-cü il mayın 7-də "Rəfah" keçidinin Fələstin hissəsini ələ keçirib. O vaxtdan bura nəqliyyatın hərəkəti üçün bağlı qalıb.



Hadisələrin bu fonunda əsirlərin azad edilməsi davam edir. Qəzzada azad edilmiş 2 israilli Beynəlxalq Qızıl Xaç Komitəsinə təhvil verilib. Bu barədə İsrail tərəfi məlumat yayıb. Dünən daha 3 girov təhvil verilib. HƏMAS fevralın 1-də 35 yaşlı Yarden Bibas, 65 yaşlı Keyt Siegel (ABŞ vətəndaşı) və 54 yaşlı Ofer Kalderonu (Fransa vətəndaşı) azad edib. Bu barədə onların ailələrinə məlumat verilib.

Hər 3 şəxs 7 oktyabr 2023-cü ildə hücum zamanı əsir götürülüb. Bu günə qədər HƏMAS İsraillə atəşkəs razılaşması çərçivəsində 15 nəfəri azad edib. Onlar İsrailin həbsxanalarından azad edilən fələstinli məhbusların müqabilində geri qaytarılır. Ümumilikdə, Qəzza zolağında atəşkəs razılaşmasının birinci mərhələsində HƏMAS-ın azad etməyi öhtəsinə götürdüyü girovların siyahısına 33 nəfər daxildir. Bunun müqabilində 2000-ə yaxın fələstinli İsrail həbsxanalarından sərbəst buraxılıb.

Xatırladaq ki, Qəzza zolağında döyüşlər 2023-cü il oktyabrın 7-də başlayıb. Həmin vaxtdan keçən müddət ərzində Qəzzada əksəriyyəti qadın və uşaqlar olmaqla 47 min 400-dən çox fələstinli həlak olub. Onların sayı hər gün artır. Dağıntılar arasından yeni cəsədlər çıxarılır. Atəşkəs elan edildikdən sonra axtarış-xilasetmə qrupları Qəzza zolağında dağılmış binalardan 354 cəsədi çıxarıb. 111 mindən çox fələstinli yaralanıb, 14 mindən çox insan itkin düşüb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Tofiq Quliyevin mahnıları Mahnı Teatrında

**Dünən Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında paytaxt musiqisevərlərinə görkəmli bəstəkar, Xalq artisti Tofiq Quliyevin mahnılarından ibarət konsert proqramı təqdim olunub.**



Konsertdə Mirxalid Salayevin rəhbərlik etdiyi instrumental ansamblın müşayiəti ilə teatrın solistləri bəstəkarın populyar mahnılarını səsləndirərək iştirakçılara nostalji, eyni zamanda, xoş anlar bəxş ediblər. Ünlü sənətçilər Gülyanaq və Gülyaz Məmmədovalar, Heydər Anatollu və digər müğənnilərin bir-birindən maraqlı ifaları Tofiq Quliev musiqisinin həmişəyaşarlığını nümayiş etdirib.

Xatırladaq ki, Tofiq Quliyev Azərbaycan musiqi mədəniyyətində estrada-caz musiqisinin təməlini qoyaraq, yeni səhifə açmış korifey sənətkardır. O, Azərbaycan professional musiqi ənənələrinin Üzeyir Hacıbəyli tərəfindən əsası qoyulmuş istiqamətinin davamçısı olmaqla bərabər, yeni bir musiqi-mədəni janrın – estrada və caz musiqisinin, ilk Azərbaycan Dövlət Caz Orkestrinin yaradıcısıdır. 5 musiqili komediya , valslar, fortepiano üçün prelüd, variasiyalar, eyni zamanda, bir çox kino musiqilərinin müəllifi olan görkəmli bəstəkar estrada musiqisinin əvəzsiz sənətkarı kimi də tanınıb. Bəstəkarın lirik, şux, nikbin və oynaq çalarlı mahnıları ürəklərdə yaşayır. Bu gün böyük bəstəkar aramızda olmasa da, onun mahnıları müxtəlif tədbirlərdə, konsertlərdə daim eşidilir.

***XQ***

# Gəncliyin tarixi hünər və qeyrət marafonu

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 2 Fevral Gənclər Gününə həsr olunmuş dəyirmi masa keçirilib.**



Muzeyin Gənc Alim və Mütəxəssislər Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru Dilbər Hüseynova "Azərbaycan Respublikasının müstəqillik və suverenliyinin qəhrəman gəncləri" mövzusunda məruzəsini təqdim edib. Bildirilib ki, gənclər hər bir dövlətin gələcəyi, cəmiyyətin aparıcı qüvvəsidir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildən etibarən 2 fevral tarixinin ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi gənclər siyasətinin dövlətimizin inkişafının əsas istiqamətlərindən biri olduğunu bir daha sübut edir. Cəsurluqları ilə fərqlənmiş və qürur mənbəyimiz olan gənclərimizdən söz açan Dilbər Hüseynova onların uğur və hünər yolunun gələcək nəsillərə örnək olduğunu vurğulayıb.

Mədəniyyət ocağının direktor müavini Ləman Muxtarova "M.Ə. Rəsulzadənin daim gənc qalan Azərbaycan sevgisi" mövzusunda məruzəsində bildirib ki, 1918-ci ildə Azərbaycanın ilk suverenliyi elan edilərkən Məhəmməd Əmin Rəsulzadə gənc yaşlarında idi. O siyasi fəaliyyətinə "Müsəlman gənclik təşkilatı"nı yaratmaqla başlamışdı. Qəlbi vətən sevgisi ilə döyünən, istiqlal eşqi ilə alovlanan Rəsulzadə əbədi və daim gənc qalan Azərbaycan sevgisini "Əsrimizin Səyavuşu" əsərində əbədiləşdirib. Onun "Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı Azərbaycan gəncliyinə məfkurə mirasıdır.

***XQ***

*Maraq dünyamız*

# Portuqaliyada Fatimə şəhəri

**Portuqaliyanın Santarem qraflığında yerləşən şəhərlərdən biri Fatimə (Fatima) adlanır və bu gün bura turistlərin, xüsusilə də müsəlman zəvvarların ən çox maraq göstərdiyi məkanlardandır. Necə olub ki, Portuqaliyada Fatimə adlı şəhər meydana çıxıb? Söhbətimiz məhz bu barədədir.**

1917-ci ildə Portuqaliyanın "Cova da İria" adlı ərazisinin yaxınlığında yerləşən meşədə çobanlıq edən 3 uşaq – Lücia dos Santos və onun əmisi uşaqları Jacinta ilə Francisko Marto qoyun otarırlarmış. Birdən görürlər ki göydən onlara tərəf bir nur, işıq seli gəlir. Uşaqlar heyrətə düşürlər. Az keçməmiş onların qarşısında hicablı bir qadın peyda olur, uşaqlara nəvaziş göstərir, xeyir-dua, öyüd-nəsihət verir. "Günah etməyin, doğru danışın, ədalətli olun!" – deyir.




Nur üzlü qadın yenidən qeybə çəkilməzdən əvvəl uşaqlara adının Həzrəti Fatimə olduğunu söyləyir. Uşaqlar artıq böyüklərə şahidi olduqları hadisə barədə danışarkən, Fatimə xanımın əlində təsbeh olduğunu da qeyd edirlər. Məşhur "Təsbehli qadın" ifadəsi məhz o zamandan bu bölgədə xalq arasında dillər əzbəri olur. Bu qəribə və maraqlı hadisə bütün ölkədə əks-səda doğurur, xüsusilə yerli din adamları bu xəbərə biganə qala bilmirlər.

Həmin dönəmdə Portuqaliya mətbuatında "Fatimə görüntüləri" ilə bağlı çox sayda yazılar nəşr olunur. Xristian dindarlar həmin nurlu qadının Həzrəti Fatimə deyil, müqəddəs Məryəm Ana olduğunu sübut etməyə çalışırlar. Ərazidə təcili surətdə Müqəddəs Məryəm kilsəsi inşa edilir və heykəli ucaldılır. Lakin keşişlər istədiklərinə nail ola bilmirlər, şəhərdə Fatimənin ülviliyi, mərhəməti ilə bağlı fikirlər güclənir. Şəhərə də o vaxtdan Fatimə (Fatima) adı qoyurlar.

Fatimə şəhərinə dünyanın çox yerindən axın edən müsəlmanların sayı isə ildən-ilə çoxalır. Zəvvarlar bu müqəddəs yerdə arzu və niyyətlərinin hasil olacağına qəlbən inanırlar. Bura unikal bir məkandır. Bəlkə də yer üzündə müsəlman və xristian sivilizasiyasının qovuşduğu, vahid razılığa gəldiyi məkan elə buradır!

Çağdaş dövrdə dünyamız çox qarışıb, Dünyaya sülhün olduqca gərək olduğu bir dönəmdə müsəlman və xristian aləminin belə bir ortaq müqəddəs məkanda cəmlənməsi insanlığın qazancıdır. Çünki Həzrəti Fatimənin də, Müqəddəs Məryəm Ananın da ruhları planetimizi bürüyən ədalətsiz milli-etnik, dini zəmində aparılan qanlı müharibələrə, qırğınlara qarşıdır.

Bəli, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq insan övladı ədalətin, haqqın keşiyində dayanmalıdır ki, dünya məhvərindən çıxmasın!

***Kəmalə ABDİNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 23 (30717) 2 fevral 2025-ci il, bazar

İdman

# Cüdoçumuz Parisdə qızıl medal qazanıb



**Fevralın 1-də Parisdə cüdo üzrə "Böyük Dəbilqə" turniri başlayıb.**

Azərbaycan millisi üçün nüfuzlu yarışın ilk günü uğurlu olub. Belə ki, təmsilçilərimizdən Ruslan Paşayev (66 kq) startda Çannyeonq Kimi (Cənubi Koreya), ardınca Murad Çopanovu (İJF) məğlub edərək yarımfinala yüksəlib. Cüdoçumuz finala gedən yolda Valid Xyarla (Fransa) gücünü yoxlayıb. Paşayev bu dueldən də  qalib ayrılıb. O, qızıl medal uğrunda digər fransalı Daikii Bouba ilə qüvvəsini sınayıb. Yerli idmançını məğlub edən Ruslan çempion tituluna sahib çıxıb.

Komandamızın digər üzvü Rəşid Məmmədəliyev (73 kq) də fəxri kürsüdə yer alıb. O, ilk qarşılaşmasında Valtteri Olini (Finlandiya) mübarizədən kənarlaşdırıb. 1/8 finalda Mixeil Baxbaxaşvilidən (Gürcüstan) də güclü olan idmançımız 1/4 finalda Akil Qyakovaya (Kosovo) uduzub. R.Məmmədəliyev təsəlliverici görüşdə Orlando Kasorlo (Fransa), 3-cü yer uğrunda mübarizədə isə Otari Kvantidze (Portuqaliya) üzərində qələbə qazanaraq bürünc medal qazanıb.

Qeyd edək ki, Azərbaycan millisi turnirə 10 idmançı ilə qatılıb. Yarış 2 gün davam edəcək.

# Karateçilərimizin Qırğızıstan uğuru



**Azərbaycan karateçiləri Qırğızıstanın Bişkek şəhərindəki "Bishkek Open" beynəlxalq turnirində uğurla çıxış ediblər.**

Azərbaycan Karate Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, idman karatesi üzrə yığmanın 3 üzvü mükafat qazanıb. Kumite yarışlarında böyüklər arasında Aslan Dostuyev (67 kq) qızıl medala layiq görülüb. 16-17 yaşlı gənclər arasında Rauf İmanov (61 kq) gümüş, 10-11 yaşlı uşaqlar arasında Ömər Əliyev (30 kq) bürünc mükafata sahib çıxıblar.

Qeyd edək ki, turnirdə 1000-ə yaxın idmançı iştirak edib.

# Şahdağda həvəskar xizək yarışı

**"Şahdağ" Turizm Mərkəzi və Azərbaycan Qış İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə uşaqlar arasında həvəskar xizək yarışı üzrə Heydər Əliyev Kuboku start götürüb.**



Yarışdan öncə rəsmi açılış mərasimi keçirilib. Dövlət Himni səsləndirildikdən sonra turnir açıq elan olunub.

Yarışda müxtəlif yaş kateqoriyasında olan 50 uşaq birincilik uğrunda mübarizə aparır.

Qeyd edək ki, xizək üzrə Heydər Əliyev Kuboku fevralın 2-də böyüklər arasında davam edəcək.

*L.QURBANOVA*
*XQ*

Qış duyğuları

# Qar təmizliyi ilə isinmək olar

**Qış yarı olmağa lap az qaldı. Böyük çillə ömrünü bitirdi, Kiçik çillə də fevralın 20-də sonlanacaq – necə deyərlər, ömrü az, qabağı yazdı. Sonra da cərşənbələri sayacağıq... Şəbi-yeldadan başlayaraq gündüzün uzanması da bizim yaza qovuşmaq həsrətimizi qısaldır. İki-üç həftədən sonra yazın nəfəsi duyulmağa başlayacaq. Bir də görəcəyik ki, baharın müjdəçisi Novruzgülü qar altından baş qaldırıb....**

Adətən Böyük çillədə, az olsa da, arana nübar qar (dağlara, çox olmasa da, yağıb) düşər və tezliklə əriyib gedərdi. Təəssüf ki, bu il belə olmadı. Uşaq da, böyük də gözləyə-gözləyə qaldı. Yalançı saytların qurama proqnozları (yazırdılar ki, son yüz ilin ən sərt qışı gəlir. Sinoptikləri də geridə qoymuşdular. Yəqin ki, bunun arxasında nəyinsə reklamı dururdu.) tezliklə "əriyib" getdi, qar çöllərə-düzlərə yox, əkinçinin



ümidlərinə yağdı. (İnsan ömrü də belədi, bəzən ən böyük arzuları gözləməkdən saralıb-solur. Bir də onda ayılır ki, daha nə yaş o yaşdı, nə baş o baş. Bu da bir



alın yazısıdı, neyləyək).

Fikir yenə çəkdi məni ömrə-günə, mətləbdən uzaqlaşdıq. Hə, əzizlərim, qarın vaxtında-vədəsində yağması çox vacibdir. Bunu dədə-babalarımız illərlə yoxlayıblar və bu nəticəyə gəliblər ki, ilin xoş gəlişi, zəmilərin, bağların bərəkəti, qarın az və çox yağmasından asılıdır.

Məlumat üçün deyim ki, son illərdə olduğu kimi, bu il də əkin sahələrində çoxlu zərərverici var. Dərmanlamaqla bunun qarşısını almaq çətindir. Yaxşı qar yağanda və şaxta olanda problemin həlli asanlaşır. Çünki torpaqda olan kəsəyən və digər ziyanvericilər soyuqdan qırılır. Digər tərəfdən, öncə qeyd etdiyimiz kimi, məhsuldarlığın yüksəlməsində qarın xüsusi rolu var. Qarla bağlı indi kəndlinin ümidi hikkəli Kiçik çilləyədir...Çünki, məlum, Kiçik çillə Böyüyə nisbətən sərt keçir. Xalq arasında bir rəvayət var. Kiçik çillə Böyük çilləni yola salanda ondan soruşur: "Gəldin, uzun ömür yaşadın, neylədin?". Böyük çillə cavab verir ki, tayaları yarıladım, qovurma küpəsinin başını endirdim, qalaqları sökdürdüm... Kiçik çillə şeşələnə-şeşələnə deyir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini un çuvalında donduracağam". Böyük çillə gülümsəyib deyir ki, indidən lovğalanma, heç nə edə bilməyəcəksən, çünki ömrün az, qabağın yazdır..

Əlbəttə bu, xalq yaradıcılığıdır və o rəvayətin yaranmasından qərinələr, əsrlər ötüb. Artıq təbiətdə çox şey dəyişib. İndi bəzən yazın ortasında səhralara qar yağır, qışda şimalda olmazın istilər olur...

Dostlar, onu da deyim ki, artıq aran rayonlarında ağacəkmə kampaniyasına başlanılıb. Əkinçilər bu gün də bəzi aqrotexniki tədbirləri davam etdirirlər. Mən də, o qədər də böyük olmayan, həyətimdə 20-dən çox nar və heyva, tut tingləri basdırmışam. Ümid edirəm həyətim bu il daha yaşıl olacaq və növbəti payızda xeyli nar, heyva dərəcəyəm. (Ağsu narı və heyvası yemək istəyən indidən kəndimizə səfər günlərini planlaşdırsın və gəlib görsün ki, köhnə qəzetçi bağbanlığı da pis bacarmır).

Hə, dostlar, ağac və gül kolları əkib-becərmək hər kəsin, belə demək olarsa, Vətən torpağı üzərində "yaşıl avtoqrafı", daha bir vətəndaşlıq borcudur..

Hələ ki, havalar günəşli və mülayim keçir. Səhər yuxudan ayılan kimi pəncərədən həyətə boylanıram. Sanki Günəş ələcsizlıqdan gülümsəyir.

Deyirəm, kaş sabah yuxudan oyanıb çölə baxanda dünyanı qara bürünmüş görəydim. Əllərim, ayaqlarım üşüsə də özümü ataydım qarın üstünə. Uzanıb göydən nur kimi tökülən bənzərsiz qar dənələrini seyr edəydim. Qar yağaydı və mən qarın qoynunda xatirələrin istisinə qızınaydım...

Məkanı cənnət olsun şair Musa Yaqubun, necə gözəl deyib:

***Uduz tək üstümə səpələn, ey qar,***
***Geyindir əynimə ağappaq don***
***Sənin ki bu qədər təmizliyin var,***
***Bağışlamaq olar soyuqluğunu.***
***Ulduz tək üstümə səpələn, ey qar,***
***Belə təmizliklə isinmək olar.***

İnşallah, tezliklə dünyamız ağ yorğanına bürünər, qar torpağımıza bərəkət, uşaqlara sevinc bəxş edər.

Təki ürəyimizin atəşi sönməsin, əllərimiz işdən soyumasın, ümidlərimizə qar yağmasın.

***Səməd MƏLİKZADƏ***



# Şuşada gənclik bayramı

**Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə 2 Fevral Azərbaycan Gəncləri Günü ilə bağlı toplantı keçirilib. Şənlikdə Qarabağ Regional Təhsil İdarəsinin müdiri, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən müəssisə rəhbərləri və gənc müəllimlər iştirak ediblər.**

Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün də uğurla davam etdirilən gənclər siyasətindən bəhs edib. Bildirib ki, müəllimlərin işə qəbulunda, təhsil müəssisələrində müvafiq vəzifələrə təyinatda innovativ və müasir düşüncəli gənclərə üstünlük verilməsi, gənclərə stimullaşdırıcı tədbirlərin tətbiq edilməsi gənclər siyasətinin bariz nümunəsidir. O, həmçinin gənclərin təhsildə rolu və bu gün işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərmənin önəmindən və məsuliyyətindən də danışıb.

Daha sonra gənc təhsil işçiləri öz təbriklərini tədbir iştirakçıları ilə bölüşüblər. Şagirdlər tərəfindən müxtəlif ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

Gənclər siyasətinin həyata keçirilməsində səmərəli və aktiv fəaliyyətinə görə bir qrup müəllim və təhsil işçisi təltif olunub.

***XQ***

Hava

# Yağmursuz və dumanlı bazar günü



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 2-də Bakıda və  Abşeron yarımadasında havanın  dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman, zəif çiskin olacaq. Cənub-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 1-6°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu, nisbi rütubət 70-80  faiz  olacaq.  Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.  Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 9-14° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 2-7° isti olacaq.**

***Q.QASIMOV***
***XQ***

# Tbilisidə Azərbaycanın gürcü dostu anılıb

**Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzində ədiblərimizin əsərlərini gürcü dilinə tərcümə edən şair və araşdırmaçı Akaki Tseretelin xatirəsi anılıb.**




Mərasimdə çıxış edənlər Akaki Tseretelinin yalnız Gürcüstan deyil, bütövlükdə Cənubi Qafqaz mədəniyyətinə böyük töhfələr verdiyini vurğulayıblar. Tsereteli dostluq və əməkdaşlığın simvolu olaraq Azərbaycan ədəbiyyatına da xüsusi maraq göstərmişdir. O, M.F.Axundzadənin, M.Şəfi Vazehin və digər yazıçı və şairlərimizin əsərlərini gürcü dilinə tərcümə edib. Onun tərcümələrində həmin əsərlərin mahiyyəti, milliliyi və məğzi dəyişməyib.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktor müavini Leyla Əliyeva bildirib ki, Akaki Tsereteli və Mirzə Fətəli Axundzadə arasında yaranan bu simvolik mədəni körpü bizə bir daha mədəniyyətin sərhəd tanımadığını göstərir. Belə tədbirlər xalqlarımız arasındakı dostluğu daha da gücləndirir.

*Sağlamlıq*

# Yaşıl çay – içdikcə say

**Pəhriz həkimləri bu vaxtadək yaşıl çayı gündəlik  rasiona daxil etməyi ona görə  tövsiyə ediblər ki, bu içki insanın çəki artmasının qarşısını alır, onu gümrah saxlayır və bəzi xəstəliklərdən qoruyur.**

Yapon alimləri tərəfindən aparılan son araşdırmada isə məlum olub ki, yaşıl çayın müntəzəm içilməsi yaşlı insanların beynində ağ maddənin daha az zədələnməsinə səbəb olur.

Tədqiqatçıların apardığı təcrübədə 65 yaşdan yuxarı 8 min 766 insan iştirak edib. İstehlak olunan yaşıl çayın miqdarına dair məlumatlar beyin həcmini və ağ maddəni qiymətləndirən MRT müayinələrinin nəticələri ilə müqayisə edilib. Nəticələr "Science of Food" jurnalında dərc olunub. Məlum olub ki, 200 mililitr tutan 3 stəkan yaşıl çay içmək ağ maddənin zərərini üç faiz azaldır. Gündə 7–8 fincan yaşıl çay içənlərdə isə bu zərər altı faiz aşağı düşür.

Yapon alimləri yaşıl çayın Alzheimer və ya demensiya kimi ciddi xəstəliklərin yaranma riskini azaltdığını da bildirirlər.

Elm adamları vurğulayırlar ki, yaşıl çayda qəhvədən daha az kofein olduğuna görə, bu çay qan təzyiqini normada  saxlamaq üçün daha faydalıdır.

***Z.HÜSEYNLİ***
***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3046
SİFARİŞ 186
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00